# NƏFSİ SAFLAŞDIRMADAN QABAQ
# ÖZÜNÜTANIMA

**MÜƏLLİF: MƏHƏMMƏD TƏQİ MİSBAH YƏZDİ**

**TƏRCÜMƏ EDƏN: MƏHƏMMƏD TURAN**

بسم الله الرحمن الرحيم

# Entesharate Taharat


**Kitabın adı............Nəfsi saflaşdırmadan qabaq özünütanıma**

**Müəllif:...........................Ustad Misbah Yəzdi**

**Tərcümə edən:.......................Məhəmməd Turan**

**Nəşr edən:...............................................Təharət**

**Çap növbəsi:........................................Birinci**

**Çap tarixi:...................................................2005**

**Tiraj:............................................................3000**

**964-95613-2-3**

## Müqəddimə

İnsan, müxtəlif baxımlardan ayrı-ayrı elmlərin mövzusudur. Psixologiya, sosiologiya, tarix, əxlaq, tibb, hətta fiziologiya və biologiya da uyğun elmlərdəndir. Bu elmlərin hər biri müəyyən bir baxımdan insanı öyrənir. İnsan kamilləşən mövcuddur. Biz də bu barədə danışacağıq.

Söhbətimiz, kamilliyyin zirvəsi və ona çatma yolları haqqındadır. Çalışacağıq ki, əsl hədəfə çatmaq üçün fitrətimizdəki vasitələri, bu yoldakı maneələri, vücudumuzu başqalarına bağlayan əlaqələri və bu əlaqələrdən ala biləcəyimiz yardımları öyrənək. Ümid edirik ki, Allahın yardımı ilə özümüzün və başqalarının kamilləşməsi yolunda müsbət bir addım ata biləcəyik.

Söhbətimizin mövzusu, insanın kamilləşə bilməsidir. Məqsədimiz, həqiqi kamilliyi və ona çatma yollarını tanımaqdır. Bu işin üslubu kamilləşmə üçün vücüdumuzun malik olduğu imkanların, kamilliyə çatmaqda köməkçi amillərin və bu yolda ən münasib şəraitin araşdırılmasıdır. Müddəalarımızın isbatı üçün vicdan və ağılın sadə dəlilləri ilə kifayətlənməyə çalışacağıq. Ən aydın məlumatlardan istifadə edərək, qaranlıq məsələləri izah etməyə səy göstərəcəyik. Lazım gələrsə, yığcam əqli və nəqli dəlillərə müraciət edəcəyik.

## *ÖZÜNÜTANIMANIN ZƏRURƏTİ*

Fitrətən hər bir şeyin mahiyyətini bilməkdə maraqlı olan bir mövcud özü ilə maraqlanmaya bilərmi? Onun özü barədə düşünməsi, öz kamilliyi və bu kamilliyə çatma yollarını araşdırması tam təbiidir. Özünütanıma zərurətinin sübutuna ehtiyac qalırmı? Əslində insanın öz kamilliyi barədə düşünməyib, onun xoşbəxtliyində əhəmiyyəti olmayan işlərə baş qatması qeyri-təbiidir. Bu sayaq qeyri-təbii halın araşdırılması və islahı vacibdir. İnsanın bütün fəaliyyətləri, onun istəkləri və mənafelərinin təmini məqsədini daşıyır. Hansı ki, insanı tanımadan, insan kamilliyini dərk etmədən, insanın kamilliyi üçün nəyin faydalı, nəyin zərərli olmasını təyin etmək

qeyri-mümkündür. Səmavi dinlərin, dini rəhbərlərin və əxlaq alimlərinin özünütanıma və özünütərbiyə məsələsində israrı, bu işin əhəmiyyətini bir daha təsdiq edir. Qurani-şərif özünü unutmağı, Allahı unutmağın başlanğıcı bildirərək buyurur:

«**O kəslərdən olmayın ki, Allahı unutdular və Allah da onlara özlərini unutdurdu**»[1], «**Özünüzü [islah etməyi] unutmayın. Əgər doğru yolda olsanız, yolunu azanlar sizə heç bir zərər yetirə bilməzlər**»[2].

«Fussilət» surəsinin 53-cü ayəsində Allah-təala öz qüdrət nişanələrinə işarə edərək buyurur: «**Biz öz dəlillərimizi onlara həm üfüqlərdə, həm də onların öz vücudunda göstərəcəyik ki, (Onun haqq olduğu aydınlaşsın**»).

Qurani-kərimdə elə ayələr də vardır ki, insan vücudundakı dəlillərə xususi işarə olunur: «**Sizin öz vücudunuzda da əlamətlər vardır**»[3].

Özünü düşünməyən, öz daxilində ilahi əlamətləri görməyən insanlar Quranda qınanılırlar. Həzrəti Peyğəmbər (s) özünütanımaya böyük əhəmiyyət verərək, buyurur: «**Özünü tanıyan Allahını tanıyar**».

«Ğürərül-hikəm»-də Həzrət Əmirəl-möminin Əlidən (ə) uyğun mövzuda otuza yaxın rəvayət nəql olunur. O həzrət (ə) buyurur: «**Ən yaxşı tanıma, özünütanımadır**», «**Heyrət, özünü itirib-axtarmadığı halda, itki gəzən adama!**», «**Mərifətin (tanınmanın) nəhayəti, özünütanımadır**», «**Ən böyük ləzzət özünü tanıyan insanındır**», «**Elmi artan insan, bu artımdan ən çox özü üçün faydalanar və öz tərbiyəsində daha çox çalışar**».

## *İZAH*

Mümkündür ki, bu hissədə müəyyən bir mənada işlədilmiş sözlər, növbəti hissələrdə başqa mənada işlədilsin. Oxucunu çaşdırmamaq məqsədi ilə, bəzi izahlar veririk:

---

[1] «Həşr» surəsi, ayə 19

[2] «Maidə» surəsi, ayə 105

[3] «Zariyat» surəsi, ayə 21

1. Özünütanıma dedikdə, kamilləşmə istedadı və qüvvəsinə malik insanı tanımaq nəzərdə tutulur. İnsan elm öyrəndikcə, öz mənəviyyatını paklandırdıqca, özünü daha yaxşı tanıyır. Lakin bu bizim nəzərdə tutduğumuz özünütanıma deyildir. Bizim nəzərdə tutduğumuz özünütanıma nəinki özünütərbiyə nəticəsində yaranmır, hətta bu özünütanıma həmin özünütərbiyənin müqəddiməsidir. Məsələn, fiziologiyanı öyrənməklə, insan orqanizminin tanınmasının bizim mövzuya heç bir aidiyyatı yoxdur. Hətta insan psixologiyasının öyrənilməsi də, bu mövzudan kənardır. Amma bizim özünütanıma mövzumuzda bəzi psixoloji bəhslərdən istifadə olunur.

2. Özünütərbiyə dedikdə, insan fəaliyyətinin məhdudlaşdırılması yox, bu fəaliyyətə istiqamət verilməsi nəzərdə tutulur. Bu mövzunun məqsədi, insanın öz elmi və əməli fəaliyyətini düzgün tənzimləməsi və onun həqiqi kamillik yoluna yönəldilməsidir. Məqsəd, hansısa fikirləri beyinlərdən çıxarmaq, mənfi təmayüllərin qarşısını almaq deyildir. Bir çox cərəyanlar maddi həyatımız üçün faydalı olsa da, bu maddi həyat çərçivəsindən çıxmadığı üçün mövzumuzun həqiqətini özündə əks etdirə bilmir.

3. Özünümüşahidə dedikdə, insanın öz daxili istedadlarını dərk etməklə, həqiqi kamillik – səadət yolunu tanıması nəzərdə tutulur. Bu o demək deyil ki, insan cəmiyyətlə bağlılıqlarını qıraraq, başqaları ilə həmkarlıqdan çəkinməlidir. Bizim nəzərdə tutduğumuz özünütanıma, özünümüşahidə, özünütərbiyə yalnız müsbət məziyyətlərə malikdir, xudbinlik və eqoizimdən tam uzaqdır.

4. Bir çox sözlər vardır ki, müxtəlif elm sahələrində ayrı-ayrı mənalarda işlədilir. Hətta bir elm sahəsində fəaliyyət göstərən, müxtəlif məktəblərdə ayrı-ayrı mənalar daşıyan sözlər də vardır. Əql, nəfs, şəhvət, hiss, idrak, xəyal, qüvvə, güc və s. bu kimi sözlər bəzən oxucunu çaşdırır. Mənanı düzgün anlamaq üçün bu kimi sözlərin müxtəlif anlamlarından xəbərdar olmaq, bir elmi və ya fəlsəfi məktəb çərçivəsində məhdudlaşmamaq lazımdır.

## *KAMAL – KAMİLLİK*

«Kamal» sözünə tərif verməyə ehtiyac olmasa da, bəzi yanlışlıqları aradan qaldırmaq üçün müəyyən izahlar vermək məcburiyyətindəyik. Kamal, mövcudu xarakterizə edən bir sifətdir. Lakin eyni bir sifəti müxtəlif əşyalarda araşdırdıqda məlum olur ki, bir əşya üçün kamillik hesab olunan bir sifət, başqa bir əşya üçün nöqsandır. Məsələn, armud üçün kamillik şirinlikdirsə, limon üçün kamilik turşluqdur. Elm insan üçün kamaldırsa, daş üçün əhəmiyyətsizdir.

Ümumiyyətlə daşda, taxtada, kamilik qazanmaq istedadı yoxdur. Məsələ bundadır ki, hər bir mövcud üçün xüsusi hədd və ölçülər vardır. Öz həddindən kənara çıxan mövcud, başqa bir növə çevrilir. Belə bir dəyişmə, atomların artıb-azalması ilə molekul dəyişikliyinə və ya maddənin enerjiyə çevrilməsinə səbəb ola bilər. Bu da mümkündür ki, atom və molekullarının kəmiyyət və keyfiyyətcə eyni olmasına baxmayaraq, iki şey mahiyyətcə fərqli olsun. Məsələn, süni bitgi toxumu təbii bitgi toxumu ilə tərkibcə eyni olsa da, birində təkamül xüsusiyyəti mövcud olduğu halda, digərində belə bir istedad müşahidə edilmir. Hər bir mahiyyət mənşəcə hansı xüsusiyyətlərə malikdirsə, həmin xüsusiyyətlərin kamilləşməsi istedadından faydalanır. Lakin yeni mahiyyətin yaranması üçün əvvəlki kamilliklərin aradan çıxması zəruri deyil. Bir çox mövcudlar öz əvvəlki kamilliklərini qorumaqla, yenilərini qazana bilirlər.

Bitki aləmində atomlar və mədən maddələri olduğu kimi mövcuddur. Ümumi bitki həyatı atomun həyatına mane olmur. Belə mövcudlardakı ilkin kamilliklər, ali kamilliklərin əldə olunmasına yardımçı da ola bilər. Lakin ilkin xüsusiyyətin inkişafı, ali kamilliklə nəticələnməyə də bilər. Çox vaxt son ali kamala çatmaq üçün ilkin kamilliklərin məhdudlaşdırılması zəruri olur. Belə ki, ağacın qol-budağının çoxluğu, onun lazımi kimi meyvə verməsinə mənfi təsir göstərir. Budama ağacın bəhrəsini artırır. Beləliklə, həqiqi kamal son nəticə üçün zəruri olan sifətlərdən ibarətdir. Həqiqi kamilliyə çatmaq üçün faydalı olan digər sifətlər isə, müqəddimə kamalıdır.

Əgər ağacı daş parçası ilə müqayisə etsək görərik ki, ağacda olan bəzi xüsusi qüvvələr daşda mövcud deyildir. Daş və ağacın atom və molekullarındakı oxşarlıqlara baxmayaraq, ağacda tamamilə fərqli xüsusiyyətlər vardır. Demək, ağacda nəbatata məxsus mənşə xüsusiyyətləri vardır. Nəbatatda mövcud olan kamillik sifətləri, cansız aləmdə müşahidə olunmur. Ağac meyvə vermək istedadına malik olduğu halda, daş və torpaq bu istedaddan məhrumdur. Fərqli xüsusiyyətlərə malik olan nəbatat, digər xüsusiyyətlərini də qoruya bilir. O, bu xüsusiyyətlərdən istifadə edərək, təkamül yolunu keçir. Belə bir nəticəyə gəlirik ki, bir bitki öz kamillik həddinə çatmaq üçün ilkin təbii istedadlarından faydalanır. O, bu istedadlara öz kamilliyi üçün faydalanacaq qədər ehtiyaclıdır. Həmçinin nəbati qüvvələrə malik olan heyvanlar, bu qüvvələrdən öz heyvani kamilliklərinə çatmaq üçün istifadə edirlər. Təbii, nəbati, heyvani qüvvələrə malik olan insan da, öz növbəsində həmin bu qüvvələrdən faydalanaraq, kamil insan olmaq üçün fəaliyyət göstərir. Ağacın budaqlarının çoxluğu onun kamilliyinə mane olduğu kimi, ilkin xüsusiyyətlərin də qədərindən çoxluğu, insan kamilliyi üçün maneədir.

Hansı nəticələrə gəlirik?

1. Maddi mövcudlar kamillikləri nəzərə alınmaqla, dərəcələrə bölünə bilər. Birinci dərəcədə cansız aləm, orta dərəcədə nəbatat – yaşıl təbiət və heyvanat aləmi, ali dərəcədə isə insan yerləşdirilə bilər. Bu dərəcələmədə kamilliyin ölçüsü yox, növü nəzərdə tutulur. Yəni insanın heyvandan daha kamil olduğunu göstərən bu dərəcələmədən belə bir nəticə çıxmır ki, insan inəkdən çox yeməli, ceyrandan iti qaçmalı və ya şirdən güclü olmalıdır. Nəbatatın cansız aləmdən daha kamil olması o demək deyildir ki, ağac daşdan möhkəm olmalıdır.

2. Bir mövcuddan daha üstün dərəcədə olan digər mövcud, daha üstün qüvvələrə malikdir və bu qüvvələr onun təkamülündə işə salınmalıdır.

3. Daha üstün qüvvələrdən qədərindən artıq istifadə edildikdə, təkamül yolunda maniələr yaranır.

4. Hər bir mövcudun həqiqi kamilliyi, onun son fəaliyyətinin zəruri etdiyi nəticədir. Bu kamilliyin də mərtəbələri vardır. Alma yetirmək ağac üçün kamaldır. Lakin bunun mərtəbələri vardır. Ağacın meyvə verməsi, ağac üçün kamilliyindən üstün kamillik hesab olunmur.

Beləcə, kamilliyi əsl və ali, ya da həqiqi və nisbi kamilliklərə bölmək olar. Əsl kamillik üçün də mərtəbələr mövcudur.

5. Aşağı mərtəbə qüvvələrindən hansı ölçüdə istifadənin xeyirli olduğunu təyin etmək üçün həqiqi kamilliyi nəzərdən keçirməliyik.

Başqa sözlə, aşağı mərtəbə mövcudunun hər hansı bir sifətini o zaman giriş hesab etmək olar ki, bu sifət ali və həqiqi kamala çatmaq üçün müqəddimə olsun. Bir daha məlum olur ki, insanın həqiqi kamilliyini tanımalıyıq.

## *KAMİLLƏŞMƏ HƏRƏKƏTİ, ONUN AMİLLƏRİ VƏ ŞƏRTLƏRİ*

Bir mövcudun kamilləşməsi, bu yolda tədricən dəyişmədən ibarətdir. Kamilləşmə hərəkəti zamanı insandakı kamilliyə çatma istedadı işə düşür. İnsan xarakterində əmanət qoyulmuş qüvvələr vasitəsi ilə xarici şərait və imkanlardan istifadə etməklə, uyğun dəyişiklik həyata keçir.

Torpaq altındakı buğda dənəsi yalnız lazımı qədər su, hava, istilik və işıq aldıqda cücərir. Sonra gövdə və yarpaqlar zahir olur. Nəhayət, bir toxumdan yeddi yüz yeni buğda dənəsi yaranır. Bir dənədən yeddi yüz dənəyədək keçilən yol «kamilləşmə hərəkəti»-nin bir nümunəsidir. Buğda dənəsində onu qidalandıran, zərərli maddələri kənarlaşdıran qüvvələr vardır və bu qüvvələr «təkamül amilləri»-dir. Su, hava, işıq və istilik isə, «təkamül şərtləri»-dir.

Kamilləşmənin ölçüsünü, onun amil və şərtlərini adətən təcrübə yolu ilə təyin etmək olur. Başqa yolların mövcud olması da mümkündür.

Ortaya belə bir sual çıxır: bütün mövcudlar dəyişilə bilirmi? Ola bilərmi ki, tanıdığımız və tanımadığımız mövcudlar arasında tamamilə dəyişməz mövcudlar olsun? Təbii əvəzolunmaqla yanaşı, nisbi əvəzolunmalar da dəyişiklik hesab

edilirmi? Bütün dəyişikliklər kamilliyə aparır, yoxsa hərəkət nəticəsində məhrumiyyətə də düşmək olar? Növbəti söhbətlərdə bu suallar öz cavabını tapacaq.

## *ELMİ VƏ QEYRİ-ELMİ HƏRƏKƏT*

Bir buğda dəninin yeddi yüz buğda dəninə çevrilməsi zamanı baş verən dəyişiklik, düşüncə və bilik yolu ilə baş vermir. Yumurtadan cücə çıxanadək gedilən yol da belədir. Amma cücənin inkişaf edib toyuq olmasında düşüncənin rolu vardır. Əgər cücə aclığı və susuzluğu, soyuğu və istini hiss etməsə, dəni daşdan ayıra bilməsə, yaşaya bilməz.

Deməк, kamilləşmə yolu iki növdür: elmi və qeyri-elmi. Bir dənin yeddi yüz dənə çevrilməsi təbii və ya qeyri-elmi, cücənin toyuq olanadək keçdiyi inkişaf yolu isə, elmi yoldur.

## *TƏBİİ VƏ QEYRİ- TƏBİİ DƏRKETMƏ*

Bir sıra kamilləşmə hərəkətinin şərti olan dərketmə təbii (fitri, instiktiv) və qeyri-təbii ola bilər. Dərk etməyə misal olaraq, heyvanların instiktiv dərketməsini göstərmək olar. İnsanın elm və bilik qazanaraq tədricən əldə etdiyi dərketmə, qeyri-təbii dərketmədir.

Yenə də suallar doğur. Nəbatat aləmində dərketmə mövcuddurmu? Heyvanlarda yalnız təbii dərketmə mövcuddur, yoxsa qeyri-təbii dərketməyə də təsadüf olunur? Əgər heyvanlarda qeyri-təbii dərketmə varsa, bu dərketmə insanlardakı dərketmədən nə ilə fərqlənir? Bu suallara da növbəti bəhslərdə cavab veriləcək.

## *İXTİYARİ VƏ QEYRİ-İXTİYARİ HƏRƏKƏT*

Bəzən kamilləşmə hərəkəti bir mövcudda bütün şərtlər ödənildiyindən öz-özünə, qeyri-ixtiyari yaranır. Bəzən isə, bu hərəkət iradədən asılıdır. İnsan həyatında mövcud fəaliyyətləri ixtiyari və qeyri-ixtiyari növlərə asanlıqla ayırmaq olur.

Şübhəsiz ki, ixtiyari hərəkətdə təkamül iradədən asılıdır. Yəni nəzərdə tutulmuş kamala çatmaq üçün daxili qüvvələr, şərait və imkanlarla yanaşı, insanın iradəsi də rol oynayır. Əgər

insan elm və biliyə malik deyilsə, ixtiyarındakı seçimdə səhvə düçar olacaq. İnsanın ixtiyari hərəkəti yalnız o zaman səmərəli olur ki, kifayət həddə elm və biliyə malik olsun.

Doğru məqsəd və doğru yolu tanımaq zərurəti bir daha təsdiqləndi. İnsanın kamilləşməsinin müəyyən bir hissəsi onun iradəsi ilə həyata keçdiyindən və iradə də elmdən asılı olduğundan, elm və biliyin kəsb olunması labüddür.

## *ƏVVƏLCƏ KAMİLLİYİ TANI, SONRA ARDINCA GET!*

Sözsüz ki, həqiqi kamilliyi yalnız ona nail olanlar tanıyır. Lakin bu iş elmdən asılı olduğu üçün kamilliyi əvvəlcədən tanımaq lazım gəlir. Əgər kamilliyi tanımaq yalnız onu tapmaqla mümkün olsaydı, onu əldə etmək qeyri-mümkün olardı. Tanıma iki yolla mümkündür. Bunlardan biri tapıb-görməklə həyata keçən «şühudi tanıma», digəri əqli və nəqli yolla əldə edilən «elm yol ilə tanıma»-dır. Bu bəhs kamilliyi tanımaq və kamilliyə çatmaq istəyində olan insanlar üçün nəzərdə tutulmuşdur.

Biz insan kamilliyini ona çatmazdan əvvəl elə tanımalıyıq ki, vicdanla düşüncə tərzi aydınlaşsın. Bu olduqca əsassız istəkdir. Bu yolda dəlillərə əsaslanaraq, zehni tanımaqdan başqa çarə yoxdur. Əlbəttə ki, ilkin dəlilləri ən sadə və aydın, yəqinlik və vicdanla müəyyənləşmiş məlumatlardan götürməyə çalışıcağıq.

## *HƏQİQİ İNSAN KAMİLLİYİNİ TƏCRÜBƏ YOLU İLƏ TANIMAQ OLARMI?*

Bəziləri elə düşünə bilər ki, heyvan və bitki üzərində təcrübə aparılmaqla onların kamalı öyrənildiyi kimi, insanın da üzərində təcrübə aparıb, uyğun məsələni həll etmək olar. Doğrudanmı, müxtəlif insanları müxtəlif zaman və məkanlarda yerləşdirməklə, onların nəyə qadir olduğunu öyrənmək mümkündür? Bu yolla təkamülün şərtləri və ona çatma yolu öyrənilə bilərmi? Azca düşünsək görərik ki, insan nəbatat və heyvanatdan qat-qat üstün mərtəbədədir və onun öyrənilməsi, o qədər də sadə məsələ deyildir. İnsan təcrübə yolu ilə özündən

aşağı mərtəbədə dayanan mövcudları təcrübə yolu ilə öyrənə bilər. Amma insanı öyrənmək üçün həqiqi kamilliyə nail olmaq lazımdır. Uşağın nəyə qadir olduğunu yetkin insan deyil, kamil insan anlaya bilər.

Bitki və heyvan növlərinin imkanları məhdud olduğundan, onları öyrənmək asandır. Axı min il bundan əvvəlki canavarla bu günkü canavar arasında nəzərə çarpacaq bir fərq yoxdur. İnsan isə uyğun min ildə əhəmiyyətli dərəcədə dəyişmişdir. Təbiətdə olan müxtəlif meyvələr, xüsusi bir nizamla yaşayan bal arısı və digər mövcudlar əsrlər ötməsinə baxmayaraq dəyişmədiyi halda, insan üçün bu gün nailiyyət hesab olunan səviyyənin əlli il sonra da nailiyyət sayılacağı şübhə doğurur. İnsan hər gün öz vücudunun bir sirrini açır. Bu həmin insandır ki, yarandığı gündən indiyədək bir an da olsun belə, fəaliyyətindən dayanmayıb. İnsan mənəviyyatında açılan yeni səhifələr, maddi həyatdakı yeniliklərdən daha heyrətamiz və daha əhatəlidir. Bütün bunları nəzərə alaraq qətiyyətlə deyə bilərik ki, nəbatat və heyvanatdan fərqli olaraq, insan kamalının sərhədlərini təcrübə yolu ilə o mövcudları öyrənmək olar ki, onları hiss etmək mümkün olsun. Lakin mənəvi fəzilətləri qiymətləndirmək üçün heç bir ölçümüz yoxdur. Ruhani kefiyyətlərin bəzi təsirlərini tədqiq etmək mümkün olsa da, onların hansı mənbədən yarandığını müəyyənləşdirmək təcrübə işi deyil. Yüxarıda deyilənlər, filosof və alimlər arasında insan kamilliyi mövzusu ətrafında mövcud ixtilaflara aydınlıq gətirir.

## *FƏLSƏFƏNİN İNSAN KAMİLLİYİ HAQQINDA RƏYİ*

Dünyagörüşü sahəsində alimlər arasında olan fikir ayrılığı, insana münasibətdə də davam edir. Bu baxışların təhlili müsbət bir nəticə verməsə də, onlardan bəzilərinə nəzər salırıq.

1. Birinci nəzəriyyədə maddə, ləzzət və fərd əsas götürülür. Bu nəzəriyyəyə görə, maddi ləzzətlərdən maksimum faydalanma kamillikdir. Təmin olunmuş, şirin bir dünya həyatına nail olmaq üçün insan elm və texnikadan, təbii sərvətlərdən istifadə etməlidir.

2. İkinci nəzəriyyəyə görə kamillik odur ki, insan təbii sərvətlərdən bütün ictimai təbəqələrin rifahı üçün istifadə etsin. Birinci nəzəriyyədə fərdin rifahı nəzərdə tutulursa, ikinci nəzəriyyədə cəmiyyətin rifahı əsas götürülür.

3. Bu nəzəriyyə əvvəlki nəzəriyyələr ilə qarşı-qarşıya dayanmışdır. Mənəvi və ruhani tərəqqini əsas götürən bu baxışa görə, kamillik nəfs istəkləri və maddi ləzzətlərlə mübarizədə əldə olunur.

4. Kamillik elm və hikmət öyrənməklə əldə edilən əqli tərəqqidir.

5. Elm və fəzilət qazanmaqla əqli və əxlaqi inkişaf kamillikdir.

Son üç nəzəriyyə maddənin əsas götürülməsi fikri ilə müxalifdir. Lakin üçüncü nəzəriyyədə maddi istəklərlə xüsusi bir yolla rəftar edilərək kamilliyə nail olmaq nəzərdə tutulur. Bu nəzəriyyədə insan cisminə düşmən kimi baxılırsa, dördüncü və beşinci nəzəriyyələrdə cism, kamilliyə çatmaq üçün bir vasitə hesab olunur. Şübhəsiz ki, bütün nəzəriyyələr fəlsəfi əsaslara malikdir. Lakin onların hər birini dərindən araşdırmaq, söhbətimizin mövzusuna aid deyil. Məqsədimiz mürəkkəb izahlardan çəkinərək, hamının başa düşə biləcəyi bir tərzdə kamilliyin tanıdılmasıdır. Ona görə də, hansısa bir məktəbə məxsus mürəkkəb arqumentlərdən çəkinərək, fikrimizi çox sadə bir şəkildə ifadə etməyə çalışacağıq. Hansısa nəzəriyyəyə istinad etməməkdə fikrimiz, gələcəyimiz nəticələri onlara qəbul etdirmək deyil.

## *FİTRİ İSTƏKLƏRİN İSTİQAMƏTLƏNMƏSİ*

Filosoflar və pisixoloqlar insanın malik olduğu ruhani istək, hiss, meyil və sair fəaliyyətləri az-çox araşdırmışlar. Həqiqətin tanınması, onun təhlili, gerçəkliklərlə insanın əlaqələri haqqında müxtəlif fikirlər söylənilmişdir. Biz hər hansı baxışa münasibət bildirmədən, insan fitrətinin malik olduğu bəzi istəkləri və onların təkamülündəki incəlikləri araşdıracağıq. İnsan fitrətinin meyilləri onu idarə edən ən güclü qüvvələrdən olduğundan, bu qüvvəlləri tədqiq etməklə həqiqi kamilliyi tanımağa çalışacağıq.

Bəli, insan məhz bu qüvvələrin tələbi və digər imkanların yardımı ilə səadətə çata bilər. Bu meyllərin istiqaməti insan üçün kompas əqrəbi kimidir. Buna görə də, bu meyilləri diqqət və səbrlə tədqiq etmək lazım gəlir. Bu işdə kiçik tələskənlik, səadət qapılarının insanın üzünə bağlanmasına səbəb ola bilər.

## *DƏRKETMƏ VƏ ONUN MƏRTƏBƏLƏRİ*

İnsanda ətrafdakı həqiqətləri bilmək və tanımaq üçün fitri bir meyil vardır. Lap uşaqlıqdan özünü biruzə verən bu meyil, ömrün sonunadək davam edir. Uşaqların sualı sual dalınca yağdırması, bu fitri meylin təzahürüdür. Daha çox istedada malik olan uşaq, daha çox çox sual verir. Elm və biliyi artdıqca, suallar da çoxalır.

Bəs görəsən, bu meylin dayanacaq nöqtəsi varmı? Onu bütün varlıq dünyası maraqlandırdığından bütün sualları cavablandıracaq kamil bir elm və ya elmi kamillik arzusundadır. Başlanğıc nöqtədən elmi kamilliyədək olan yolu pillə-pillə araşdıraq.

İnsan ətraf aləmlə zahiri hiss və bədən üzvlərinin əşyalarla əlaqəsi vasitəsi ilə tanış olur. Hiss üzvləri işığın, səsin, istiliyin, qoxunun, dadın əvvəlcə sinirlərə, daha sonra isə, beyinə ötürülməsini təyin edir. Lakin hisslərlə dərketmə bəzi cəhətlərinə görə, həqiqətin dərk olunmasında kafi deyildir. Hiss üzvləri əşyanın mahiyyətini yox, onun bəzi zahiri xüsusiyyətlərini dərk edir. İkinci hiss üzvlərinin fəaliyyət dərəcəsi şəraitdən asılıdır. Məsələn, göz yalnız 4-8 mikron ölçülü işıq dalğalarını görə bilir. İnsan gözü ultrabənövşəyi işığı görməkdə acizdir. Eləcə də, tezliyi saniyədə 30-16000 ölçüsündən fərqli səs dalğalarının eşitmək imkanı yoxdur. Üçüncü, hiss üzvlərinin dərketməsi olduqca qısamüddətlidir. Xarici mühitlə əlaqəsi kəsilən hiss üzvləri tam fəaliyyətsizdir. Bütün bu nöqsanlara, hiss üzvlərinin xətalı işini də əlavə etmək olar.

Lakin tanıma və bilmə təkcə hiss üzvülərinə aid olan xüsusiyyət deyildir. İnsanda elə bir qüvvə vardır ki, hətta maddi dünya ilə əlaqələr kəsildikdən sonra da, bir zaman aldığı məlumatları qoruyub saxlaya bilir. Başqa bir qüvvə də

mövcuddur ki, bütün məfhumları külli şəkildə qavrayıb, zehnin mühakiməsinə verə bilir. İnsan bu daxili qüvvələrin vasitəsi ilə öz bilik dairəsini genişləndirib, fitri və dəqiq məlumatlardan aldığı nəticəni həyata keçirə bilir. Elm və sənayedəki inkişaf, həmin daxili qüvvələrin bəhrəsidir.

Fəlsəfə digər elmlərdən müəyyən xüsusiyyətlərinə görə fərqlənir. Digər elmlərdəki fəaliyyətlər insanın dünya xoşbəxtliyinə xidmət edir. Fəlsəfənin məqsədi isə, əşyaların mahiyyətini öyrənməkdir. Bir varlığı tanımaq üçün onun yaranış səbəbini bilmək zəruridir. Əql silsiləsinin nəhayəti Allah-təala olduğundan, bu yolda aparılan araşdırmaların «Allahı tanımaq» bəhsi ilə yekunlaşacağı şübhəsizdir. Filosofların əksəriyyəti belə zənn edib ki, insanın elmi təkamülü varlıq aləminin dərki ilə başa çatır. Amma insanın fitri istəkləri açıq-aşkar bu biliklərlə kifayətlənməyib, irəliyə can atır. İnsan fitrəti varlıq aləmi həqiqətlərini xətasız, olduğu kimi dərk etmək istəyir. Belə bir bilik isə nə zehni, nə də fəlsəfi yolla əldə edilmir.

Zehni fəaliyyətlərlə nə qədər çox məlumat əldə edilsə də, bu məlumatlar əsl həqiqətlərdən əhəmiyyətli dərəcədə fərqlənir. Bu fərqə misal olaraq «aclıq»-la «vicdan» arasındakı fərqi göstərmək olar. Aclığın nə olduğunu hamı bilir. Çünki hamı bu hissi keçirir. Bəs vicdan necə, o da aclıq kimi asan dərk olunurmu?! Əgər bir şəxs aclıq keçirməsə, aclığın mənasını dərk edə bilərmi?!

Fəlsəfə də belədir. O, varlıq aləmi həqiqətlərini araşdırsa da, əsl həqiqətləri anlamaqda acizdir. Həqiqət axtarışında olan insanın yanğısı yalnız o zaman tam aradan gedə bilər ki, əsl həqiqətlə şəxsən tanış olsun. Hiss üzvləri və təfəkkürlə müəyənləşdirilmiş xətalı həqiqət isə, əsl həqiqətdən fərqlidir. Demək, nə fəlsəfə, nə də digər təcrübi elmlər həqiqəti olduğu kimi dərk etmək qüdrətində deyil.

## *QÜDRƏT*

İnsanın fitri meyillərindən biri də, qüdrət və gücdür. Bu meyil, özünü lap uşaqlıqdan büruzə verməyə başlayır və ömrünün sonunadək davam edir. Əlbəttə ki, bu meyil müxtəlif

yaş dövrləri və şəraitlərdə fərqli olur. Körpənin əl–qolunu oynatması, uşağın yorulmadan atılıb-düşməsi bu meylin təzahürlərindəndir. Bu istək tədricən güclənir nəhayətsizliyə üz tutur.

İlk əvvələr bu istək yalnız təbii qüvvələrə istinad edir və bədənin qüvvəsinin artımına yardımçı olur. Zaman keçdikcə əzələlər qüvvətlənir və daha ağır işlərin öhdəsindən gələ bilir. Gənclik dövründə bu qüvvə öz zirvəsinə çatır. Yaş ötdükcə qüvvə də azalır və zəif qocalıq dövrü özünü göstərir. Lakin qüdrət və güc arzusu heç zaman zəifləmir.

İnsan öz qüdrətini artırmaq üçün təbii gücü ilə kifayətlənməyib, elm və texnikanın köməyi ilə bu imkanları artırmağa çalışır. Elmi texniki tərəqqi (ETT) onda dünyanı, hətta kainatı özünə tabe etdirmək kimi fikirlər oyadır. Son dövrün kəşf və ixtiraları insanın bu fitri istəyinin təminində böyük rol oynamışdır. Lakin insanın qüdrətlənməsi, heç də həmişə bəşəriyyətin səadəti ilə nəticələnmir. Çox vaxt qüdrətə çatmış insan zülmə əl ataraq, başqalarının hüququnu pozur. Bəzən insanın qüdrət istəyi o qədər həddi aşır ki, nə təbii gücü, nə də elm və texnikanın yardımı ilə kifayətlənə bilmir. İnsanın cinlər və ruhlarla əlaqə yaratması, onun güclənmə istəyi yolunda nələrə hazır olduğunu bir daha təsdiq edir.

Maraqlıdır ki, öz qüdrət və gücünü artırmaq üçün min bir yola əl atan insan, kamil bir qüdrət əldə edə bilərmi? Qeyd etmək lazımdır ki, bütün deyilən qüvvələr məhdud və müvəqqəti olduğundan, insanın sonsuz və əbədi istəklərini təmin etmək qüdrətində deyillər. Sonsuz istəklərin təmini üçün sonsuz bir qüdrət mənbəyinə ehtiyac vardır.

## *EŞQ VƏ PƏRƏSTİŞ*

İnsanda güc və qüdrət istəyindən tamamilə fərqlənən bir meyil – cismən və ruhən nəyə isə bağlanmaq meyli vardır. Psixoloqlar tərəfindən kifayət qədər araşdırılmamış bu meyil haqqında danışmaq olduqca çətindir. İnsan öz daxilinə nəzər salsa görəcəkdir ki, onda kimə və ya nəyə isə bağlanmaq meyli vardır. Sanki hansısa bir nöqtə onu maqnit kimi özünə cəzb edir. Əlbətdə ki, bu qüvvə müxtəlif insanlarda müxtəlif gücə

malik olur. Məhz bu müxtəliflik səbəbindən, insanlar eyni bir istiqamətdə birliyə nail ola bilir.

Fitri məhəbbətin ən gözəl nümunələrindən biri, ananın öz övladına məhəbbətidir. Ananın övlada baxmaqdan, onu ağuşuna almaqdan, onun nazını çəkməkdən duyduğu ləzzət, həmin məhəbbətin əlamətlərindəndir. Ananın məhəbbəti fitri məhəbbətin ən parlaq təzahürlərindəndir. Bu məhəbbət tarix boyu qələm sahiblərinin sevimli mövzusu olmuşdur. Atanın da övlada məhəbbəti belədir. Ailə üzvləri arasında olan məhəbbət də olduqca dəyərlidir. Fitri məhəbbətin bir növü də, həmin növlər arasında mövcud olan məhəbbətdir. İnsanın insana marağı bu məhəbbətin nümunəsidir. Qonşuluq, yerlilik, yaşıdlıq insanlar arasındakı məhəbbəti daha da artırır.

İnsanın əşyaya bağlılığı da, fitri məhəbbətin bir növüdür. İnsanın öz maddi həyatını təmin etmək üçün ehtiyac duyduğu sərvətə, məskənə, paltara olan bağlılığı təbii bir meyildir.

İnsanlarda gözəlliyə də maraq vardır. Hər hansı bir insanın və ya əşyanın gözəlliyinə məhəbbət, onun ruhundan doğan bir tələbdir.

İnsan zahiri gözəlliyə məftun olduğu kimi mənəvi gözəlliyə də vurulur. Gözəl əxlaq, rəftar və söz hər zaman məhəbbət ünvanıdır. Elm adamlarını heyrətə gətirən kainatdakı nizam da, bu gözəlliklərdəndir. «Səcdə» surəsinin 7-ci ayəsində buyrulur: «**O yaratdığı hər şeyi gözəl xəlq etdi**». Hər bir mövcud öz mərtəbəsinə uyğun ilahi gözəllikdən faydalanır və öz yaradıcısından danışır. Ümumiyyətlə, məhəbbət öz gücünə görə üç qismə bölünür: Zəif mərtəbəyə məxsus məhəbbət adi şəraitdə öz məhbubuna yaxınlaşsa da, bu yolda heç bir fədakarlıq göstərilmir. İkinci mərtəbəyə məxsus olan məhəbbət, məhbubu ilə yaxınlığa çalışır və şəxsi mənafelərini qorumaqla bu yolda nədənsə keçir. Üçüncü mərtəbəyə məxsus olan məhəbbətin nəticəsi, özünü yaddan çıxararaq məhbuba itaətdən ləzzət duymaqdır. Özünü heç bilmək, kiçilməkdən ləzzət almaq! Məhbubun bütün istəklərinə boyun əymək bu məhəbbətə xas olan xususiyyətlərdir. Məhəbət nə qədər güclüdürsə, vüsal da bir o qədər şirindir. Bəs məhəbbətdən duyulan ləzzət nə zaman kamala çatır? Burada məhbubun

necəliyi şərtdir. Əgər ən yüksək məhəbbət ən üstün məhbuba yönəlmişsə, ləzzət də kamil olacaq. Əgər məhbubun közəlliyi zamandan, məkandan, şəraitdən asılıdırsa, kamil məhəbbətdən hansı əsasla danışmaq olar?!

Demək, fitri istək varlıq dünyasına sığmayan bir eşq axtarır. Həqiqi eşq, insana ən güclü bağlılığa malik məşuqa ünvanlanmışdır. Həqiqi məhəbbətdə insan özünü məşuqun timsalında müşahidə edir. Deyilən şərtlərə malik olmayan məşuqa olan eşq, fitri istəyi razı salmaq gücündə deyil və belə bir eşq daim nakamdır.

## *LƏZZƏT VƏ KAMİLLİK*

Hər bir insan öz vücuduna azca nəzər salmaqla anlayar ki, fitrətən ləzzətə, rahatlığa müsbət, əzab-əziyyətə, çətinliyə isə, mənfi münasibətdədir. O, daha çox ləzzət almaq və narahatçılıqdan uzaq olmaq üçün yorulmadan çalışır. İnsan böyük çətinliklərdən qurtulmaq üçün kiçik çətinliklərə dözür, kiçik ləzzətləri böyük ləzzətlərə qurban verir. Belə bir hərəkət ağılın tələbidir. Ağıl isə, hesablaşmalara əsaslanaraq höküm çıxarır. Müxtəlif insanların müxtəlif ləzzətlərə üstünlük verməsi isə, hesablamalar arasındakı fərqdən yaranır. Demək, ləzzət həyat fəaliyyətinin həm səbəbi, həm də nəticəsidir. Eləcə də, ləzzət şüurlu varlıq üçün kamillik də hesab oluna bilər. Çünki insanda ona yiyələnmək istedadı mövcuddur.

Ləzzət bəxş edən, qəmdən uzaqlaşdıran işlər insanın iradəsincədir. Ləzzət gətirən şeylər məhəbbət doğurur. Tələb olunan iş və sifət, lüğətdə məhəbbət adlandırılır. Demək, ləzzət, iradə və məhəbbət arasında əlaqə mövcuddur.

Lakin insan bəzən elə xüsusi bir ləzzət istəyir ki, bu ləzzətə çatmaq üçün çalışmaq lazım gəlir. İnsanın bu məqsədlə başladığı hər bir iş, başqa bir iş üçün müqəddimə ola bilər. Əslində bu işlərdəki məqsəd, əsl məqsədin tərkibidir. Beləcə, əsl məhəbbət insanın əsl istədiyi mövcuda olan məhəbbətidir. Əsl məhbuba çamaq yolunda zəruri müqəddimələrə bağlılıqdan duyulan ləzzət, əsl vüsaldan duyulacaq ləzzətdir.

Ötən söhbətlərdə bu nəticəyə gəldik ki, insanın həqiqi kamilliyi onun istedadı qüvvəsində olan ən ali mərtəbədir. Bu

ali kamillikdir. İnsanın ali kamilliyə çatmaq yolunda əldə etdiyi bütün digər kamilliklər nisbidir. Ali kamilliyin də mərtəbələri ola bilər.

Deməк, insanın əsl istəyi, həqiqi kamillikdir və o, uyğun ali məqama doğru can atır. Digər əşyalara istək, bu əşyaların həqiqi kamiliyə çatma yolundakı rolu ilə bağlıdır. İnsan fitrətinin tələb etdiyi ləzzət, yalnız həqiqi kamilliyə çatdıqda duyula bilər. Bütün digər ləzzətlər məhduddur.

Demək, həqiqi ləzzəti tanımaq üçün həqiqi kamilliyi tanımaq lazım gəlir. İnsan yalnız o zaman həqiqi ləzzət duya bilər ki, onu əvvəlcədən tanımış olsun. Bir sözlə, həqiqi kamilliyi tanımadan, həqiqi ləzzəti duymaq qeyri-mümkündür.

## *İNSAN ÜÇÜN ƏN ALİ LƏZZƏT NƏDİR?*

Ləzzət, insanın öz arzuladığı və sevdiyi şeyə qovuşmaqdan, duyduğu qəlb halətidir. Əgər bir şeyə məhəbbətiniz yoxdursa, ona qovuşmağın da ləzzəti yoxdur. Hətta insan arzuladığı şeyə qovuşduğundan xəbərsiz olarsa, yenə də ləzzət duya bilməz. Demək, ləzzəti duymaq üçün arzulanan şeyə qovuşmaq kifayət deyildir. Ləzzəti duymaq üçün bu şeyə qovuşduğunu dərk etmək də şərtdir. Arzulanan şeyi tanımaq, ona qovuşduğunu anlamaq, ləzzətin duyulmasında əsas amillərdəndir. Ləzzətin dərəcəsi insanın diqqətindən və dərketmə qüvvəsindən asılıdır. Müxtəlif insanların eyni bir şeyi yeməkdən duyduqları ləzzət müxtəlif ola bilər. İnsan bir yeməyə nisbətən digər yeməkdən daha çox ləzzət ala bilər. Burada yeməyin dadı yox, insanın hansı yeməyi daha çox sevməsi şərtdir. Eyni bir elmlə məşğul olan iki tələbədən biri öyrəndiyi elmdən daha çox ləzzət ala bilər. Demək, ləzzətə münasibətdə insanın istəyi olduqca əhəmiyyətlidir.

Ləzzətin davamı da şəraitdən asılıdır. Ləzzət alanın, ləzzət verənin, ləzzət verən şeyə istəyin aradan getməsi ilə ləzzət də tükənir. Lakin bu şərtlər ümumi və adi ləzzətlərə aiddir. Deyilən şərtlərdən asılı olmayan həqiqi ləzzətlər də vardır.

Məsələn, elmə yiyələnmək üçün alimin vücudu və elm sifəti tələb olunur. İnsanın özündən, Allah-təalanın öz zatından xəbərdarlığında isə elm, alim, məlum kimi müxtəliflik yoxdur.

Əgər məhəbbət üçün sevən, sevilən və sevgi şərtdirsə də, insanın özünə sevgisində bu müxtəliflik mövcud deyildir. İnsan özünə daha istəkli olduğundan, özündən daha çox ləzzət aparır. Bütün digər ləzzətlər insanın özündən apardığı ləzzətin kölgəsindədir.

Adi halda ləzzətin yoxluğu diqqətsizlikdəndir. Əgər insan xarici amillər, böyük təhlükələr və ya diqqətini təmərküzləşdirmək səbəbindən xarici aləmdən ayrılıb özünə qapıla bilsə, böyük bir ləzzət duyar. Əgər haqqında ölüm hökmü çıxarılmış insan qəfildən bu hökmün ləğv olunduğunu eşitsə, olduqca böyük ləzzət alar. Bu ləzzətin səbəbi əldən verilmiş dünya həyatının geri qaytarılmasıdır. Bu misal insanın həyata və özünə sevgisini aşkar göstərdiyi üçün mövzumuz üçün faydalıdır.

Deməк, insan ya öz vücudundan, ya öz kamilliyindən, ya da ehtiyaclı olduqlarından ləzzət aparır. Əgər insan öz varlığını onu ehtiyacsız edə biləcək bir varlığa bağlasa, ən ali ləzzəti əldə etmiş olar. Əgər insan öz vücudunu həmin ali varlıqla bağlılıq vasitəsi bilsə, öz müstəqilliyi yox, həmin varlığın müstəqilliyindən ləzzət alar.

Beləcə, insanın həqiqi istəklisi onun ən yüksək ləzzət aldığı elə bir mövcuddur ki, insanın varlığı bilavasitə ona aiddir. Əsl ləzzət həmin mövcudla əlaqənin müşahidəsidir.

## *MEYİLLƏRİN ZİRVƏ NÖQTƏSİ VƏ AMALIN SONU*

Əvvəlki araşdırmalardan aydın oldu ki, insanın fitri meyilləri sonsuzluğa yönəlmişdir və bu meyillər üçün dayanacaq yoxdur. Nəhayətsiz istəklər insana məxsus sifətlərdəndir. Qovuşduğu heç bir istək onu qane etmir. İnsanla heyvan arasındakı ən mühüm fərqlərdən biri də budur. Rassel yazır: «İnsan və heyvan arasındakı ən mühüm fərqlərdən biri budur ki, heyvandan fərqli olaraq insanın meyilləri qeyri-məhduddur və bu meyilləri tam qane etmək mümkünsüzdür».

Bu meyillər müxtəlif vaqiələrlə əlaqəli olsa da, nəhayətdə bir-birlərinə bağlanaraq vahid bir şeylə razı salına bilinərlər və bu yeganə şey elm, qüdrət, gözəllik və kamilliyin tükənməz başlanğıcı ilə əlaqədir. Vücud gücləndikcə, onda kamilləşməyə

və vəhdətə meyil artır. İlk əvvəl bədəndə səpələnmiş qüvvələr, kamilləşmə tələbindən vəhdətə doğru yönəlirlər.

Fitri meyillərdən hər birinin istəyi sonsuzluğa yönələrək, nəhayətdə bir-birləri ilə qovuşurlar. Əslində meyillər, bir məqsədə müxtəlif cəhətlərdən yönəlmiş ayrı-ayrı baxışlardan doğur. Müxtəlif istiqamətlərdən axtarılan bu məqsəd mütləq kamil varlığa bağlılıq, yəni Allah-təala ilə yaxınlıqdır. İnsan öz yaradanı ilə məhz bu məqamda kamil əlaqəyə yetişir və özünü ona aid bilir. Məhz bu mərtəbədə bütün əşyalar Allahın müqəddəs zatında həll olur və hər bir mövcud öz tutumu ölçüsündə Allahın cəlal və camal nurundan faydalanır. Məhz bu məqamda insanın fitri meyli, varlıq həqiqətlərini tanımaqla rahatlanır. Bu mərtəbədə insan sonsuz qüdrət çeşməsinə yol tapır və istədiyi işləri yerinə yetirmək üçün güc əldə edir. Elə bu mərtəbədə də ən böyük məhbuba, ən böyük məhəbbətə nail olur. Başqa sözlə, ali məqamla yaxınlığı ən aydın şəkildə müşahidə etməklə, ən üstün ləzzətləri duyur. «Qəmər» surəsinin 55-ci ayəsində buyrulur: «**Qüdrətli sultanın yanında, haqq yerdə əyləşmişlər**». İnsanın fitri meyillərinin təmini, yalnız Allaha yaxın məqama çatmaq üçün vasitədən başqa bir şey deyildir. Başqa heç bir şey kamillik əsl kamal hesab olunmur. Əsl kamillik yalnız insana məxsus olması ilə müəyyən edilmir. İnsan yalnız sadəcə canlı olmaq çərçivəsindən çıxıb, Allaha yaxınlaşma yolunda addım atdıqda, həqiqi insan olur. Bu addımı atmazdan əvvəl, insan üçün iki hal mümkündür: ya həqiqəti sezəcək istedadlar hərəkətə gəlməyib, ya da insan heyvan səviyyəsinədək alçalıb. Qurani-şərifdə iman və Allahı tanıma istedadını itirmiş kafirlər haqqında buyrulur:

«**Allah yanında ən pis canlı, küfr edənlərdir**»[1].

«**Allah yanında yer üzündə gəzən canlıların ən pisi, dərk etməyən karlar və lallardır**»[2].

«**Onların qəlbləri vardır, lakin anlamazlar. Onların gözləri vardır, lakin görməzlər. Onların qulaqları vardır,**

---

[1] «Ənfal» surəsi, ayə 55

[2] «Ənfal» surəsi, ayə 22

**lakin eşitməzlər. Onlar heyvan kimi, bəlkə heyvandan da azğındırlar»**[1].

## *FİTRİ İSTƏKLƏRİ TAM TƏMİN ETMƏK MÜMKÜNDÜRMÜ?*

Fitri istəklər sonsuzluğa yönəlmişsə, onları tam təmin etmək necə mümkün olar? Zəif, təbii və qazanılmış qüvvələri məhdud insan, bu işin öhdəsindən gələ bilərmi? Fitri istəklərin tam təmin olunmasının mümkünlüyünün sübutu, elə fitrətin özüdür. Fitri istəklər varlıq qanunlarından doğmuşdur. Məsələn, yer üzündəki dartınmalar cazibə qüvvəsinin varlığına dəlildir.

Fitri istəklərin tam təmininə ölümün mane ola bilməsi yanlış fikirdir. Ölüm yalnız dünya həyatına son qoyur və yalnız fiziki qüvvələrə aiddir. İnsanın fitri istəyi təbiətin fövqündə durur və əbədidir. Əlbəttə ki, əbədilik təkcə fitrətə aid deyil. Yaranış nizamına nəzər salsaq görərik ki, ən kiçik zərrələrdən planetlərədək, bütün mövcudlar həmin nizama tabedir. Əbədilik həmin bu nizamın qanuni nəticəsidir. Elm inkişaf etdikcə, bu nizamın əzəməti daha da aşkarlanır. Sənayenin inkişafı və müxtəlif ixtiralar uyğun nizamın təsiri altında gerçəkləşir. Ümumi nizamın nəticəsində yaranmış yeniliyi təsadüfi hesab etmək olmaz. Bu yenilik əzəmətli varlıq mexanizminin bir elementidir. Varlıq aləminin məqsədyönlü hərəkətinə bu element də öz təsirini göstərir. İnsanın fitri meyillərinin mövcudluğu da, ümumi nizamın zərurətlərindəndir. Bu meyillər insanın tərəqqi, təkamül və xoşbəxtliyi üçün mühüm amildir. Əgər insanın xoşbəxtliyi yalnız dünya səadətindən ibarət olsaydı, sonsuz istəklərə nə hacət var idi?!

Əgər fitri istəklər tam təmin olunmaq imkanından məhrum olsaydı, insana belə bir qüvvənin verilməsinə nə ehtiyac var idi?! İnsana yol göstərib, bu yolun bir başını bağlamaq, varlıq aləmini hikmətlə qurmuş Allaha yaraşan sifət deyil. İnsanı mövcud olmayan bir məqsədə dəvət etmək yalandır. Yalnız

---

[1] «Əraf» surəsi, ayə 179

yalançılar insanı aldadıb, onun əzab-əziyyətindən ləzzət ala bilərlər. Allah-təala isə belə bir sifətdən tamamilə uzaqdır. Aşağıdakı ayələr dediklərimizə əyani sübutdur:

**«Məgər onlar düşünmürlərmi ki, Allah göyləri və yeri yalnız haqq-ədalətlə yaratmışdır?!»**[1] .

**«...Allahı xatırlayaraq deyərlər: «Sən bunları boş yerə yaratmamısan!»**[2] .

**«Biz yeri, göyü və onların arasında olanları oyun-oyuncaq yaratmadıq»**[3].

**«Yoxsa, sizi əbəs yerə yaratdığımızı və huzurumuza qayıtmayacığınızı güman edirsiniz?»**[4] .

## *ALLAHLA AGAH VƏ KAMİL ƏLAQƏ AĞLASIĞANDIRMI?*

Ötən araşdırmalardan gəldiyimiz nəticəyə əsasən, insanın fitri istəkləri yalnız Allah-təala ilə kamil əlaqə yolu ilə tam təmin oluna bilər. Belə bir əlaqə fəlsəfi dəlillərlə sübuta yetir. Bütün yaranmışlar öz yaradanı ilə qırılmaz əlaqəyə malikdir. İnsanın vücudu, Allahla bağlılıq vasitəsidir. Əgər insan özünü tanısa, əmin olar ki, onun vucudu Allah ilə əlaqənin özüdür. Beləcə, insan Allahla kamil əlaqəni tapıb, onu müşahidə edə bilər.

İnsanın özünü tanmasını bütün filosoflar mümkün hesab edir. Əgər insan ətrafa diqqətini yayındırmayıb, nəfsin bəlalarından qurtara bilsə, özünü asanlıqla tanıya bilər. Özünütanıma biliyi insanda mövcud olsa da, dərketmə qüvvəsini lazımsız işlərə sərf edən insan bu bilikdən xəbərsiz qalır. Əgər o diqqətini təmərküzləşdirə bilsə, özünütanıma qüvvəsi aşkarlanar.

İnsanın Allahla bağlılığı, hikmət mütaliəsi yolu ilə də sübut oluna bilər. Bu bağlılıq iki müstəqil varlıq arasındakı bağlılıq deyildir. Bu bağlılıqda Allah-təala müstəqil, insan isə qeyri-

---

[1] «Rum» surəsi, ayə 8

[2] «Ali-imran» surəsi, ayə 191

[3] «Ənbiya» surəsi, ayə 16

[4] «Möminun» surəsi, ayə 115

müstəqildir. Qeyri-müstəqil olduğu üçün də Allaha ehtiyaclıdır. İnsanın vücudu bu bağlılığın vasitəsidir.

Öz həqiqətini müşahidə edən insan, özünü Allaha aid bilir. Qeyri-müstəqil bir vücudun bağlılığını dərk etmək, bu vücudun qəyyumu olan müstəqil vücudu dərk etmədən, qeyri-mümkündür. Güzgüdə əks olunmuş günəş şüasını anlamazdan əvvəl, günəşi anlamaq lazım gəlir. «Şəbaniyyə» münacatında oxuyuruq: «Bizim qəlb gözümüzü öz nəzər nurunla özünə tərəf işıqlandır ki, bu gözlər sənin əzəmət mədəninə dikilsin, ruhlarımız müqəddəs dərgahına yönəlsin». İnsanın öz həqiqətinin müşahidəsi, ilahi camal və cəlal nurunun müşahidəsindən ayrı deyil. «Özünü tanımayan Rəbbini tanımaz».

İnsanın varlığı nə qədər əhatəli və yüksək mərtəbədə olarsa, diqqəti nə qədər təmərküzləşərsə, ilahi nurdan da bir o qədər faydalanar. Uyğun münacatda deyilir: «Bizi öz izzətinin ən gözəl nuruna nail et ki, yalnız səni tanıyıb, səndən qeyrilərindən üz döndərək».

İnsan öz bağlılığını, asılılığını daha çox dərk etdikcə, həqiqi və müstəqil ilahi varlığa daha çox yaxınlaşır, hətta Allahın zatının kamil aynasına çevrilir. Rəcəb ayının duasında bu gerçəklik belə ifadə olunur: «Səninlə onlar arasında ayrılıq yoxdur. Sadəcə, onlar sənin bəndələrindir. Onların çarəsi sənin əlindədir, onların əvvəli sənsən, qayıdacaqları da sənsən».

Belə bir əlaqəyə nail olmaqla, insanın həqiqət və qüdrət istəyi tam təyin olunur. İnsan öz həqiqi istəyinə çatmaqla, ali bir ləzzət duyur. Bu ləzzətin ən kamil mərtəbəsi o zaman əldə edilir ki, insan özünü unudaraq, Allahdan qeyrisinə möhtac olmur, dünya əyləncələrinə bağlanmır. «Zahidlərin münacatı»-nda oxuyuruq: «Qarşılaşacağımız gün gözlərimizi öz görüşün üçün işıqlandır».

## *ƏN SADƏ YOL*

Allahın müqəddəs dərgahı ilə əlaqəyə inanmaq üçün ən sadə yol, Allah-təalanın öz peyğəmbərləri vasitəsi ilə insanlara minnət qoyaraq göstərdiyi yoldur: «**Biz peyğəmbərləri müjdə gətirən və əzabla qorxudan kimi göndərdik ki,**

**peyğəmbərlərdən sonra insanların Allaha qarşı bəhanə yeri qalmasın**»[1]. İlahi peyğəmbərlər insanları Allaha yaxınlığa, elm və qüdrət çeşməsi ilə əlaqəyə dəvət etmişlər. Eləcə də, insanlara əbədi, sonsuz, istədikləri nemətlər vəd olunmuşdur: «**Onlar üçün Rəbbinin dərgahında dilədikləri hər şey vardır**»[2], «**Orada onların ürəkləri istəyən, göz oxşayan hər şey olacaqdır**»[3], «**Etdikləri əməlin mükafatı olaraq, möminlər üçün göz oxşayan necə nemətlər saxlandığını kimsə bilməz!**»[4] .

Yuxarıdakı ayələrdən məlum oldu ki, fitri istəkləri tam qane edə biləcək nemətlər, yalnız Allah dərgahındadır. Dünya həyatının məhdudluğu, ötəriliyi və insan üçün son mənzil olmamasının xatırladılması, peyğəmbərlərin dəvətinin səciyyəvi xususiyyətidir. «Əla» surəsinin 16-17-ci ayələrində buyrulur: «**Siz dünyanı üstün tutursunuz, halbuki axirət daha xeyirli və əbədidir**».

«Səbə» surəsinin 7-ci ayəsində kafirlərin peyğəmbərlərə qarşı çıxmasının əsas səbəbi göstərilir: «**Kafirlər dedilər: «Parçalanıb dağıldıqdan sonra yenidən yaradılacağınızı xəbər verən adamı göstərəkmi?**». Növbəti ayədə kafirlərin dilindən buyrulur: «**Görəsən yalan uydurur, yoxsa bir dəliliyi var?**»[5] . Ayənin davamında Allah-təala kafirlərə belə cavab verir: «**Xeyir, axirətə inanmayanlar özləri əzab və azğınlıq içindədirlər**».

«Təğabun» surəsinin 7-9-cu ayələrində buyrulur: «**Kafirlər öldükdən sonra dirilməyəcəklərini iddia edirlər. De ki, Rəbbimə and olsun ki, mütləq diriləcəksiniz. Sonra da etdiyiniz əməllər sizə xəbər veriləcəkdir. Bu, Allah üçün çox asandır. Elə isə Allaha, onun peyğəmbərinə və nazil etdiyimiz nura iman gətirin. Allah etdiyiniz əməllərdən agahdır. Allahın sizi cəm edəcəyi gün, qarşılıqlı aldanma**

---

[1] «Nisa» surəsi, ayə 165

[2] «Zumər» surəsi, ayə 34

[3] «Zuxruf» surəsi, ayə 71

[4] «Səcdə» surəsi, ayə 17

[5] «Səbə» surəsi, ayə 8

**günüdür. Kim Allaha iman gətirib yaxşı əməllər etsə, günahlarının üstü örtülər və altından çaylar axan cənnətlərə daxil edilər. Beləlləri cənnətdə əbədi qalar. Budur ən böyük uğur**».

İsra surəsinin 97-98-ci ayələrində isə belə buyrulur: «**Biz qiyamət günü onları üzləri üstə sürünə-sürünə kor kimi məşhərə çəkərik. Onların düşəcəkləri yer cəhənnəmdir. Cəhənnəmin odu əskildikcə onu şöləndirərik. Bu, ayələrimizi inkar etdiklərinə və «torpaq, sümük olduqdan sonra yenidən diriləcəyikmi?» dediklərinə görə onların cəzasıdır**».

Allahın göndərdiyi peyğəmbərlər insanları dəvət edib, vəd verməklə kifayətlənmədilər. Onlar Allah dərgahı ilə, elm və qüdrət mənbəyi ilə əlaqənin təsirlərini açıq-aşkar nümayiş etdirdilər ki, insanlar həqiqi elm və qüdrət qazanmağın yolunu tapsınlar. İllahi elmlərdən istifadə etməklə insan fövqəladə qüdrətlər əldə edə bilərdi.

Heç bir yerdə təhsil almamış peyğəmbərlər qeybi xəbərlər verməklə, sirli görünən məsələləri açmaqla, elm və hikmət incəliklərindən danışmaqla sübut etdilər ki, Allah dərgahı ilə əlaqə mümkündür. Bu məsələyə işarə ilə Qurani-kərimdə buyrulur:

«**Adəmə bütün adları öyrətdi**»[1].

«**Biz ona elm öyrətdik**»[2].

«**Biz uşaq ikən ona hikmət verdik**»[3].

«**Dedilər: «Beşikdəki uşaqla necə danışaq?». Cavab verdi ki, mən Allahın bəndəsiyəm, O mənə kitab verib, peyğəmbərliyə seçdi**»[4].

«**Sizə yediyiniz və evlərinə yığdıqlarınızdan xəbər verimmi?**»[5] .

«**Bizə quşların dili təlim olundu**»[1].

---

[1] «Bəqərə»surəsi, ayə 31

[2] «Kəhf»surəsi, ayə 65

[3] «Məryəm» surəsi, ayə 12

[4] «Məryəm» surəsi, ayə 29-30

[5] «Ali-imran» surəsi, ayə 29

İnsana Allah dərgahından əta olunmuşların ən üstünü, İslam peyğəmbərinə nazil olmuş Qurani-kərimdir. Geri qalmış bir cəmiyyətdə təhsil görməmiş bir fərdə nazil olmuş bu kitab, onunla mübarizəyə qalxanları Quranın surələri mislində bir surə gətirməyə çağırdı. Düşmənlərin çoxluğuna baxmayaraq, kimsə bu işin öhdəsindən gələ bilmədi.

İlahi peyğəmbərlər öz xariqüladə işləri, təbii qüvvələrə qələbəsi, maddi əsarətdən azadlıqları ilə sübut etdilər ki, ilahi dərgahla əlaqə yaratmaq olar.

Həzrət Salehin dağın içindən diri dəvə çıxarması, Həzrət İbrahimin dəhşətli oddan nicat tapması, Həzrət Musanın əsasının əjdahaya dönməsi, Həzrət İsanın ölüləri diriltməsi, Həzrət Süleymanın canlı və cansız qüvvələri ram etməsi insanın ilahi dərgahla əlaqəsini əks etdirən nümunələrdir.

«Hədisi-qüdsi»-də Allah-təala buyurur: «**Ey mənim bəndəm, mənə itaət et ki, səni özüm kimi edim. Mən nəyə «ol» desəm olur. Səni elə edərəm ki, hər nəyə «ol» desən, olar**».

İlahi rabitə vasitəsi ilə insana əta olunmuş qeyri-adiliklər, kəramətlər sadalansa, cildlərlə kitab bağlamaq olar. Bütün deyilənlərə göz yumaraq ilahi rabitəni inkar etmək və başqalarını da azdırmaq, rəva deyildir.

Bəşəriyyətin əlində ilahi rabitənin həqiqətini sübut edəcək faktlar olmasaydı da, heç olmaya təcrübə üçün peyğəmbər göstərişlərinə əməl etmək lazım idi. Bu mövzu insan xoşbəxtliyində o qədər əhəmiyyətlidir ki, onun həqiqət olub-olmadığını yoxlamaq üçün istənilən fədakarlığa getməyə deyər. Bəzi ideologiyaları yoxlamaq üçün dünya nemətlərindən müvəqqəti də olsa, əl çəkmək lazım gəlir. Amma peyğəmbər buyruqlarını sınaqdan keçirmək üçün heç bir məhrumiyyət vacib deyil. Əksinə, dini göstərişlərə əməl edən insan, başqalarına nisbətən dünya nemətlərindən daha çox faydalanır. Bəli, dindar insan şərab içmir. Amma insanın düşüncəsinə və orqanizminə zərərli bir şeydən imtina etmək məhrumiyyət deyil. Milçək nəcasətdən ləzzət duyur. Amma milçəyin

[1] «Nəml» surəsi, ayə 16

münasibəti nəcasətin necəliyinə dəlil deyil. Narkaman üçün narkotikasız dünya cəhənnəmdir. Əslində isə, narkotika özü cəhənnəmdir. Bir sözlə, ilahi yola qədəm qoymuş insan, heç bir faydalı nemətdən məhrum olmur.

Peyğəmbərlərin təmənnasız olaraq bu yolda çəkdikləri min bir əzab-əziyyət, insaflı adamı düşündürməyə bilməz. Allahın elçiləri xəbər verirlər ki, insanın səadəti Allahla rabitədədir. Görək bu xəbər, yoxsa bir alimin kəşfi daha əhəmiyyətlidir?

Bir kəşfi reallaşdırmaq üçün böyük miqdarda güc və vəsait sərf olunur. Amma peyğəmbər göstərişlərini sınamaq üçün cüzi bir səy də göstərilmir. Əminliklə deyə bilərik ki, «insan zərərdədir».

## *AYƏ VƏ RƏVAYƏTLƏRDƏKİ SÜBUTLAR*

Gətirdiyimiz əqli dəlillər, Quran və rəvayətlərə əsaslanırdı. Bəzi nəqli sübutlara da işarə edildi. İndi isə, başqa bir qisim dəlilləri qeyd edəcəyik. Qurani-şərif insanı fitrətən Allahçı tanıtdırır. Quran bildirir ki, insan ilkin yaranışında Allahını müşahidə etmişdir. Bu dünya həyatı, insanın ilkin yaranışında verdiyi bəndəlik vədinin sınağı üçündür. «Zariyat» surəsinin 56-cı ayəsində buyrulur: «**Mən cinləri və insanları yalnız ibadət üçün yaratdım**».

Bu sınaqda insanın qarşısına müxtəlif şəraitlər çıxır və insan hər hansı bir yolu azad şəkildə seçir: «**...Hansınızın daha gözəl əməl sahibi olacağını sınayıb bilmək üçün göyləri və yeri altı gündə yaradan Odur**»[1].

Beləcə, həyatın alatoran yollarında yalnız Allahı sevənlər, Ona pənah aparıb, Onun razılığını düşünənlər doğru və təhlükəsiz yolu tapa bilirlər. «Bəqərə» surəsinin 165-ci ayəsində buyrulur: «**İman gətirənlərin Allaha məhəbbəti daha qüvvətlidir**».

Başqa bir ayədə belə buyrulur: «**De ki, əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin**»[2].

---

1 «Hud» surəsi, ayə 7

2 «Ali-imran» surəsi, ayə 31

«Maidə» surəsinin 16-cı ayəsində oxuyuruq: «**Allah onun lütfünə sığınanları əmin-amanlıq yollarına yönəldir, onları öz izni ilə zülmətdən nura çıxarır və doğru yola yönəldir**».

«Loğman» surəsinin 22-ci ayəsində isə belə buyrulur: «**Yaxşı əməl sahibi olub Allaha təslim olan şəxs, ən möhkəm ipdən yapışmışdır**».

Uyğun mövzuya «Nisa» surəsinin 175-ci ayəsində də toxunulur: «**Allah ona iman gətirən və ondan möhkəm yapışan kimsələri öz lütfünə alıb, onları doğru yola yönəldir**»[1].

Ayələrə əsasən Allahın razılığını düşünənlər, nəhayətdə onun görüşünə nail olduğu halda dünya bər-bəzəyinə könül verənlər, öz fitri məhbublarından məhrum olaraq, üzücü əzaba qovuşurlar:

«**Dön Rəbbinə, sən Ondan, O da səndən razı olan halda! Bəndələrimin zümrəsinə daxil ol! Cənnətimə varid ol!**»[2] .

«**O gün neçə-neçə üzlər tutulub qaralacaqdır**»[3].

«**O gün neçə-neçə üzlər sevinib güləcəkdir**»[4].

«**Bizimlə qarşılaşacaqlarına ümid etməyib, dünyanı bəyənib ona bel bağlayan və ayələrimizdən qafil olanların – məhz onların qazandıqları günahlara görə düşəcəkləri yer cəhənnəmdir**»[5].

«**De ki, əgər atalarınız, oğullarınız, qardaşlarınız, övrətləriniz, qəbiləniz, qazandığınız mallar, kasad olacağından qorxduğunuz ticarət, xoşunuza gələn məskənlər sizə Allahdan, Onun peyğəmbərindən və Allah yolunda cihaddan əzizdirsə, Allahın əmri gələnə qədər gözləyin**»[6].

---

1 «Nisa» surəsi, ayə 175

2 «Fəcr» surəsi, ayə 28-30

3 «Qiyamət» surəsi, ayə 24

4 «Qiyamət» surəsi, ayə 22

5 «Yunus» surəsi, ayə 7-8

6 «Tövbə» surəsi, ayə 24

«**Xeyir, o gün onlar Rəbbinin mərhəmətindən məhrum olacaqlar**»[1].

Peyğəmbər (s) hədisləri və Əhli-beyt rəvayətlərində uyğun mövzuda sübutlar çoxdur. Qüdsi hədislər, münacat və dualardan bəzi məqamları zikr edirik:

Merac hədislərində Allah-təalanın Həzrət Peyğəmbərə (s) belə buyurduğu nəql olunur: «Mənim razılığımı qazanmış şəxsə üç sifət əta etdim: ona elə bir şükr öyrətdim ki, haqqı itirməkdən uzaq olsun; unutmayacağı bir zikr; bəndələrin məhəbbətindən üstün bir məhəbbət. Məni sevsə, onu sevərəm və bəndələrim arasında sevimli edərəm. Öz cəlal və əzəmətimə doğru qəlb gözünü açaram. Onu xüsusi elmlərdən xəbərsiz qoymaram. Gecənin qaranlığı və gündüzün işığında onunla danışaram ki, başqaları ilə söhbəti kəssin. Özümün və mələklərin sözünü ona eşitdirərəm, xalq üçün gizli olanı ona bildirərəm. Əqlimi öz mərifətimdə qərq edər və ağlına canişin olaram. O deyər: «Xudavənda, sən özünü mənə tanıtdın və səni tanımaqla, bəndələrinə möhtaclıqdan qurtardım. And olsun izzət və cəlalına! Əgər sənin razılığın mənim tikə-tikə doğranmağımda olsa, sənin razılığını üstün tutaram». «Ey mənim bəndəm, bir şəxs yer və göy əhlinin namazını qılıb, orucunu tutsa, mələklər tək yeməkdən çəkinib yoxsullar tək geyinsə, buna baxmayaraq, qəlbində dünya məhəbbəti olsa, ad-sana və dünya bər-bəzəyinə meyl göstərsə, məndən uzaq olacaq, məhəbbətimi qəlbindən çıxaracaq, məni unutması üçün qəlbinə qaranlıq salacaq, məni tanımaq nemətimi dadızdırmayacam».

Digər bir hədisdə belə nəql olunur ki, Allah-təala buyurdu: «Heç bir bəndəm ona vacib etdiyim əməllərdən başqa bir əməllərlə mənə yaxınlaşa bilməz. Vacibdən sonra müstəhəb əməllərlə yaxınlığa can atar ki, onu sevim. Elə ki onu sevdim, eşidən qulağı, görən gözü, danışan dili, tutan əli olaram. Çağırışına cavab verər, istədiyini əta edərəm».

Növbəti hədisdə oxuyuruq: «Ey Adəm övladı! Mən möhtac olmayacaq bir ehtiyacsızam. Əmrimə iatət et ki, səni də

---

[1] «Mutəffifin» surəsi, ayə 15

ehtiyacsız edim. Mən elə bir diriyəm ki, ölməzəm. Əmrimə itaət et ki, səni elə dirildim ki, ölməyəsən. Mən istədiyimə «ol» deməklə olur. Əmrimə itaət et ki, istədiyinə «ol» deyəndə olsun».

Həzrət Əli (ə) şəban ayının münacatında Allaha belə ərz edir: «Yüksəlişimizi, ilahi dərgahına yetişməkdən doğmuş asayişdə qərar ver. Öz nəzər nurunla iç gözümüzü işıqlandır ki, bu gözlər pərdələrdən nüfuz edib əzəmət mədəninə çatsın, ruhlarımız müqəddəs dərgahına bağlansın. Bizi əzəmət nuruna qovuşdur ki, səni tanıyıb, səndən qeyrisindən üz döndərək».

«Kumeyl» duasında Allah dərgahına belə ərz olur: «İlahi, tutaq ki, əzabına səbr etdim, bəs fəraqına necə səbr edəm? Tutaq ki, atəşinin istisinə dözdüm, bəs cəlalının seyrindən məhrumluğa necə dözüm?».

Həzrət (ə) buyurur: «Hər şeydən əvvəl Allahı gördüm». Ondan «Allahı gördünmü» soruşulanda belə cavab verdi: «Görmədiyim bir kəsə necə ibadət edim?!»

İmam Hüseyn (ə) «Ərəfə» duasında Allah-təalaya belə ərz edir: «İlahi! Əlamətlərinin müxtəlifliyi və halətlərin dəyişməsindən belə anladım ki, məqsədin, özünü hər şeydə mənə göstərməkdir. Xudaya! Get-gəl, iş-güc görüşündən uzaqlığın səbəbidir. Mənə elə bir xidmət yetir ki, bu xidmət məni Sənə çatdırsın. Varlığında sənə möhtac olan hər şeyi sənin varlığına necə dəlil gətirirlər? Məgər Səndən kənarda kimin zühuru var ki, o, Sənin zühuruna səbəb olsun?! Nə vaxt bilinməlisən ki, dəlilə ehtiyacın olsun?! Nə vaxt uzaq olmusan ki, əlamətlərinlə sənə çatsınlar?! Kor olsun o göz ki, Səni qarşısında görmür. O bəndə sevdasında zərərə düşdü ki, məhəbbətindən ona bəhrə verməmisən. Xudaya! Əlamətlərinə üz tutmağı əmr etmisən. Bizi qəlb gözümüzün işığında özünə tərəf qaytar... Ey Rəbbim! Bizə öz elmindən təlim et, bizi qoru. Bizi gerçək yaxınlarının həqiqətinə qovuşdur, cəzb əhli yolunda rəhbərlik buyur. Bizi öz tədbir və ixtiyarınla, tədbir və ixtiyarından qane et. Dostlarının qəlbinə işıq salıb, öz birliyini tanıtdıran Sənsən. Aşiqlərinin qəlbindən əğyarı çıxartmaqla, yalnız özünü dost tutmalarını təmin edən Sənsən. Sənsən o insanların munisi ki, hər şey onları qorxudur. Sənsən o

insanlara yol göstərən ki, onlar üçün əlamətlər aşkarlanıb. Səni əldən verən nə tapa bilib? Səni tapan insan nəyi əlindən çıxarıb? Sənin yerinə başqasını bəyənən, həqiqətən naümid olub. Sənin dərgahından üz döndərən... Ey məbudum! Bizi öz rəhmətinə daxil et ki, sənə çataq. Öz fəzlinə cəzb et ki, sənə üz tutaq... Sən özünü hər şeyə tanıtdırmısan, xəbərsiz qalan yoxdur. Sənsən hər şeydə özünü mənə tanıtdıran. Səni hər şeydə aşkar gördüm və Sənsən hər şeyə aşkarlanan».

İmam Zeynəl Abidin (ə) «Xaifin» münacatında Allaha belə ərz edir: «**Öz müştaqlarını, gözəl görüşünün tamaşasından kənar etmə**».

«Rağibin» münacatında isə, belə deyilir: «Qüdsi nuruna xatir, rəhmət və lətafətinə xatir, səndən istəyirəm ki, arzu etdiklərimi həqiqətə çevirəsən: firavan kəramət, gözəl ənam, səninlə yaxınlıq, görüşündən faydalanma».

«Müridin» münacatında ərz olunur: «İlahi! Bizə öz vüsal yolunda rəhbərlik et. Sənə aparan ən yaxın yolu göstər. Sənsən mənim məqsədim. Başqası üçün yox, sənin üçün gecələri oyaq qalmışam. Sənin görüşündür mənim gözümün nuru. Arzum sənin vüsalındır. Heyranlığım Sənin məhəbbətində, məqsədim razılığındadır. Son istəyim Səninlə yaxınlıqdır».

«Mühibbin» münacatında oxuyuruq: «Ey mənim məbudum! Bizi öz yaxınlığın üçün seçdiyin, dostluğunu xalis etdiyin, öz qəzavü-qədərindən razı saldığın, nəzərlərini özünə çəkdiyin, razılığınla minnət qoyduğun, özündən uzaq salmadığın... bəndələrindən qərar ver».

«Mütəvəssilin» münacatında ərz olunur: «Bizi öz görüş günündə gözlərinə nur verdiyin, yanında doğrular mənzilinə varis etdiyin bəndələrdən qərar ver».

«Moftəqirin» münacatında deyilir: «Sinəmin yanğısını yalnız vüsalın sərinlədə bilər. Qəlbimin alovunu söndürə biləcək şey, yalnız sənin görüşündür. Yalnız Sənin nəzərlərin şövqümü sirab edə bilər. Sənə yaxınlaşmasam, rahatlanmaram. Bu yaxınlıq olmasa, qəm-qüssədən qurtulan deyiləm».

«Arifin» münacatında oxuyuruq: «Bizi məhbubu ilə görüşə gözü işıqlandırılanlardan qərar ver. Məhəbbətin necə də

şirindir, yaxınlığın necə də dadlıdır. Bizi qovulmaq və uzaq düşməkdən qoru».

«Zakirin» münacatında belə buyrulur: «Ey mənim məbudum! Heyran könüllər sənin vurğunundur. Düşüncələr mərifətin ətrafında toplanmışdır. Qəlblər yalnız səni xatırlamaqla rahatlanır. Görüşünə çatmayan insan, sakitlik tapmır... Səni xatırlamaqdan başqa bütün ləzzətlərdən, səninlə ünsiyyətdən başqa bütün rahatlıqlardan, Səninlə yaxınlıqdan başqa bütün sevinclərdən, Sənin itaətindən başqa bütün işlərdən tövbə edirəm».

«Zahidin» münacatında deyilir: «Qəlblərimizdə öz məhəbbət ağacını sanc və məhəbbət nurunu tamamla ... Görüş günü gözlərimizi işıqlandır.

## *ÖTƏN SÖHBƏTLƏRDƏN ALINAN NƏTİCƏLƏR*

Elmi və əməli, fərdi və ictimai sahələrdə göstərilən fəaliyyətlər, yalnız həqiqi kamilliyə çatmaq məqsədi daşıdıqda insani olur. İnsan özündən asılı olmayaraq, hansısa bir istiqamətdə çalışır. Əqli cəhətdən kamil olan insan öz adına sadiq qalaraq, insanlığa can atmalıdır. İnsan öz fəaliyyətinə insani istiqamət vermək üçün təkamül yolu və bu yolun son nöqtəsini tanımalıdır. İnsanın hərəkəti onun biliyi və iradəsindən asılı olduğu üçün ünvanı bilmədən hərəkət etmək qeyri-mümkündür. Amma hədəfə çatmadan onu yaxşı tanımaq mümkünsüzdür. Demək, bu tanıma hələ ki, zehni təsəvvür yolu ilə mümkündür.

Bəşər təkamül yolunu heç şübhəsiz ki, daxili ruhani qüvvələrinin hesabına keçə bilər. Fitri meyillərin istiqamətlənməsi, həqiqi kamilliyi tanımaq üçün ən yaxşı üsuldur. Hər bir meylin göstərdiyi istiqamətlərin düşünülməsinin nəticəsi, insanı sonsuzluğa sövq edir və müvəqqəti ləzzətlər puç görünür. Aydındır ki, elm və qüdrət mənbəyi olan Allahla əlaqə yaratmadan, heç bir istək tam təmin olmaz. Yalnız əzəmətli ilahi nurun sayəsində insan özünün və bütün varlıq aləminin həqiqətini müşahidə edə bilir. Bu zaman insanın həqiqət axtarma meyli təmin olunur. Eləcə də, sonsuz ilahi qüdrətin nüfuzu ilə, insan istədiyinə çatır.

İnsanın məğlubedilməz qüdrət istəyi təmin olunur. Məhz bu zaman insan sonsuz camal və kamal sahibi olan məhbubunun vüsalına yetişir, özünü rəhmət ağuşunda müşahidə edir. Bütün istəklərin məşuq tərəfindən məhəbbətlə təmin olunması necə də ləzzətlidir.

Bu məqama çatmış insan, Allahın razılığından başqa heç nə haqqında düşünmür. Məhz bu məqamda insan öz vücudunu kamilliyə yetişmiş bir halda müşahidə edir və ən ali ləzzətə nail olur. Bu məqamdakı insan özünə məhəbbəti unudaraq, Allaha məhəbbətlə yaşadığından Allahı özü üçün yox, özünü Allah üçün istəyir.

DeməK, insanın həqiqi məhbubu Allah-təala, insanın həqiqi kamilliyi isə, Allahla əlaqə və yaxınlıqdır. Bütün digər qüvvələr məhz bu məqsədə çatmaq üçün sərf edilməlidir. Bu istiqamətdən kənara atılan istənilən bir addım, insanı məqsəddən uzaqlaşdıracaq və zərərə salacaqdır.

## *BİR NEÇƏ SUALA CAVAB*

**Birinci sual:** Əgər insanın həqiqi məqsədi Allahla yaxınlıq məqamıdırsa, bu məqama çatmaqla insan ən böyük ləzzətə nail olursa, necə olur ki, fitrətən ləzzət və səadət axtarışında olan əksər insan bu ünvanı tapa bilmir?

**Cavab:** İnsanın həqiqi səadətə, kamilliyə və ləzzətə nail olması o zaman mümkündür ki, insan bu gerçəkləri tanısın və təsdiq etsin. Lakin əksər insanlar yaranışın əsil məqsədini və həqiqi kamilliyi tanımırlar. Lakin bütün insanlar dünya nemətlərini tanıyır və onların ləzzətindən xəbərdardırlar. Ona görə də, bütün qüvvələr dünya nemətlərinin əldə olunmasına sərf edilir. Dünya nemətlərinin seçimində, insanlar arasında fərq mövcuddur. Hər kəs öz düşüncəsi və zövqünə uyğun olaraq müəyyən nemətlərə üstünlük verir. Həqiqi kamilliyi tanımaq fitri xüsusiyyət olsa da, məlumatsızlıq səbəbindən əksər insanın göstərişə ehtiyacı var.

Əksər peyğəmbərlərin ən böyük vəzifəsi, yatmış şüurları oyatmaq, unudulmuş ilahi göstərişləri xatırlatmaqdır. Dövrümüzdə bu vəzifə, peyğəmbər yolunu tanıyıb-tanıtdırmaq gücündə olanların öhdəsinə düşür. Bu insanlar həqiqi səadət

yolunu göstərərək, insanların diqqətini həqiqi fitri istəklərə yönəltməlidir.

**İkinci sual:** Əgər insanın əsil yaranış məqsədi həqiqi kamillik məqamına çatmaqdırsa, nə üçün bu yolda insana mane olacaq aldadıcı dünyəvi istəklərə insan xarakterində yer verilir?

**Cavab:**

1.İnsanın kamilliyinin dəyəri onun ixtiyarı olmasındadır. İnsana mələkdən üstün olma imkanı verən, məhz onun iradə azadlığıdır. İnsanın iradə azadlığının işə düşməsi və onun qarşısında seçim üçün müxtəlif yolların açılması zəruri idi.

2.İnsanın təkamülü tədrici və mərhələli olduğundan, seçim şəraiti də davamlı olmalı idi. İnsana hər bir təkamül mərhələsində azad seçim edib, hətta bu seçimi dəyişmək imkanı verilmişdir.

Bu iki nöqtəyə diqqət etdikdən sonra insanın dünya həyatının incəlikləri aşkarlanır. Aydındır ki, insanın hərəkət, dəyişiklik, tədrici təkamül dünyasında mövcudluğu, xüsusi vasitə və imkanlar tələb edir. Bu vasitə və imkanların stimulu insanın təbii istəkləridir. Seçim imkanı da bu istəklərin öhdəsindədir. Doğru yol seçilərsə, insanın son kamilliyə irəliləməsində təbii istəklər mühüm rol oynayar. Demək, təbii istəklər yaranış fəlsəfəsi ilə heç bir ziddiyyətə malik deyil.

**Üçüncü sual:** Əgər həqiqi kamillik dünyəvi istəklərdən vaz keçib, Allaha yaxın məqama yüksəlməkdirsə, sözsüz ki, insanların böyük əksəriyyəti belə bir məqamdan məhrum qalacaqdır. Əgər həqiqi kamilliyə yalnız kiçik bir qrup insan nail ola biləcəksə, başqalarını insan adlandırmaq olarmı? Bu qədər insan əbədi əzaba düçar olacaqmı?

**Cavab:** Həqiqi kamilliyin müxtəlif mərhələləri vardır. Əgər ali mərtəbəyə çatmaq hamıya müəssər deyilsə, istənilən bir kəs aşağı mərtəbələrə nail ola bilər. Bu mərtəbələr Allaha iman və bəndəlik yolunda müəyyən bir addım atmaqla əldə edilir. Bütün istəklərə göz yumub yalnız Allahın razılığı yolunda çalışmaq, ali mərtəbənin şərtidir.

Sözsüz ki, hər bir mərtəbə üçün xüsusi şərtlər vardır. Məsələn, həqiqətləri kamil tanımaq və hər bir işi görə bilmə qüdrəti hər möminə nəsib olmur. Amma ömrünün sonunadək

imanını qoruyan, günahların çoxluğu etiqadını əlindən almayan insanlar, əbədi səadətə qovuşacaqdır. O da məlumdur ki, əbədi behiştin də müxtəlif dərəcələri vardır. Hər bir insan malik olduğu mərifət, iman, saleh əməl və əxlaqı ölçüsündə mükafat alacaqdır.

Bu nəticəyə gəlirik ki, kamillik zirvəsini fəth edib son ilahi yaxşılığa çatmamış insan, insanlıq adından məhrum edilib əbədi əzaba məhkum edilə bilməz.

## *ALLAHA YAXINLIQ*

Allaha yaxınlıq dedikdə, insanın son məqsədi nəzərdə tutulur. İnsan öz ixtiyari hərəkəti ilə bu məqama nail olmalıdır. Allah-təala zaman və məkanın yaradıcısı olduğundan, bu işdə insan üçün zaman və məkan məfhumu yoxdur. «Hədid» surəsinin 3-cü ayəsində buyrulur: «**Əvvəl də, axır da, zahir də, batin də Odur**». Bu surənin növbəti ayəsində oxuyuruq: «**Siz haradasınız O sizinlədir**». Bəqərə surəsinin 115-cu ayəsində bu fikir bir daha təsdiqlənir: «**Hansı tərəfə üz tutsanız, üzünüz Allaha tərəfdir**».

Əgər Allah üçün zaman və məkan yoxdursa, demək, Ona zaman və məkan baxımından yaxınlaşmaq mümkünsüzdür. Bəs yaxınlıq dedikdə, nə nəzərdə tutulur?

Sözsüz ki, Allah-təala bütün yaratdıqlarını əhatə edir. «Fussilət» surəsinin 54-ci ayəsində buyrulur: «**Allah-təala hər şeyi əhatə edir. Bütün varlıq aləmi onun qüdrəti əhatəsində, Onun iradəsinə bağlıdır. Mövcud olan hər bir şey Ona aiddir. Buna görə də, O hər bir varlığa hər şeydən yaxındır**». «Qaf» surəsinin 16-cı ayəsində buyrulur: «**Biz ona şah damarından da yaxınıq**». «Vaqiə» surəsinin 85-ci ayəsində bu yaxınlıq bir daha təsdiqlənir: «**Biz ona sizdən daha yaxınıq, amma siz görmürsünüz**».

Bu həqiqi bir yaxınlıqdır. Amma qazanılmış yaxınlıq deyil ki, insan üçün kamillik hesab olunsun. Bu yaxınlıqda insan kamilliyinin heç bir rolu yoxdur. İnsan kamilliyinə aid olan ilahi yaxınlıq imanın təkamülü yolu ilə əldə edilir. Bu yaxınlıq zamanı, insan ilahi lütfə qərq olur və onun bütün istəkləri yerinə yetir.

Belə bir məqama çatmış bəndə istəyinə nail olur. Ümumiyyətlə, cəmiyyətdə böyük bir şəxslə əlaqəsi olan adam haqqında «filankəsin yaxınıdır» ifadəsi işlədilir. İman baxımından yaxınlıq ifadəsinə Qurani-şərifdə də rast gəlmək olar: «**Bunlar yaxın olanlardır.**» Məqsədimiz, yaxınlıq sözünə münasib məna tapmaq yox, diqqəti insanlığın son məqsədinə yönəltməkdir.

İnsan üçün son kamillik hesab olunan və «Allaha yaxınlıq» adlanan həqiqət elə bir mərtəbədir ki, insanın zatı istedadları onun iradəsi ilə fəaliyyətə başlayır. Bu fəaliyyət şimşək tək iti ola bilər. İsa Məsihin beşikdə danışması, Əhli-beytdən olanların ana bətnində Allahı təsbih etməsi və səcdə halında doğulması buna bir nümunədir. Bu fəaliyyət orta və zəif də ola bilər. Bu iradi hərəkət nəticəsində əldə edilən kamillik, zamandan və məkandan, maddi və fiziki vəziyyətdən asılı deyildir. Bu işdə maddi vəziyyət hərəkət üçün lazım olan şəraitdə müəyyən rol oynasa da, ümumi fəaliyyət, insanın ruhuna və qəlbinə aiddir. İnsanın fiziki vəziyyəti, eləcə də, zaman və məkan dəyişmələri onun kamilləşməsi prosesinə yalnız köməkçi təsir göstərə bilər.

İnsanın həqiqi təkamülü ruhun Allaha tərəf elmi yaxınlaşmasından ibarətdir. Bu yolda insana nəsib olan elm və təcrübə onun mərtəbəsini yüksəldir və zatı cövhərini kamilləşdirir. İnsan özünü Allahdan ehtiyacsız bilib, ehtiyaclarını müstəqil şəkildə təmin etməyə çalışdıqca, daha da nadanlaşır və Allahdan uzaq düşür. Əksinə, özünü Allahdan ehtiyaclı bilən insan, təkamül yolu keçib elə bir mərhələyə çatır ki, artıq özünü müstəqil varlıq kimi hiss etmir. Allahın sevimli bəndələrinin nail olduğu bu məqamda bəndə ilə məbud arasında heç bir hicab qalmır. Bəli, Allaha həqiqi yaxınlıq odur ki, insan Allahla hər şeyə malik, Allahsız hər şeydən məhrum olduğunu anlayır.

## *YAXINLIQ YOLU*

Bütün mövcudlar Allah-təalaya ehtiyaclıdırlar və mütləq istiqlala malik deyillər. «Muminun» surəsinin 62-ci ayəsində buyrulur: «**Bu sizin Rəbbiniz, hər şeyin yaradanı olan**

**Allahdır**». «Fatir» surəsinin 15-ci ayəsində oxuyuruq: «**Siz Allaha möhtacsınız. Allah isə möhtac deyildir və hər cür tərifə layiqdir**». «Qəsəs» surəsinin 88-ci ayəsindəki «**Allahdan başqa hər şey məhvə məhkumdur**» buyruğu bir daha göstərir ki, bütün mövcudların varlığı, yalnız bəndə və mülk olmaqdan ibarətdir.

«Taha» surəsində oxuyuruq: «**Bütün çöhrələr əzəli və əbədi Allaha təslim olub, zəlil bir görkəmə düşər**».

«Məryəm» surəsinin 93-cü ayəsində belə buyrulur: «**Göydəki və yerdəki məxluqlardan eləsi yoxdur ki, Allahın hüzuruna bir qul kimi gəlməsin**».

Əslində mövcudlardan baş verən fəaliyyətlər onları vücudunun ali varlığa aidiyyatının nişanəsidir. «Ali-imran» surəsinin 83-cü ayəsində oxuyuruq: «**Göylərdə və yerdə olanların hamısı istər-istəməz Ona təslimdir**».

«Nəhl» surəsinin 49-cu ayəsində buyrulur: «**Göylərdə və yerdə olan bütün canlılar, hətta mələklər belə heç bir təkəbbür göstərmədən Allaha səcdə edərlər**». «İsra» surəsinin 44-cü ayəsində uyğun mövzu bir daha təsdiqlənir: «**Elə bir şey yoxdur ki, Allaha tərif deyib, Ona şükr etməsin, lakin siz onların təqdisini anlamazsınız**».

İnsan da bu ümumi qanunauyğunluqdan istisna deyildir. Lakin o özünü müstəqil zənn edib, öz bəndəliyini sezmir. Ona elə gəlir ki, bütün mövcudlar müstəqildir. Hətta öz təsir dairəsini genişləndirib, qüdrətlənmək fikrinə də düşür. Sanki bununla öz müstəqilliyini möhkəmləndirmək istəyir. Onda fitrətən ehtiyaclı olduğunu xatırladan duyğu olsa da, dünyəvi və heyvani istəklər bu duyğuya qalib gələrək, onun dərk olunmasına maneçilik törədir.

Əqli yetkinliyə çatmış insan, öz vücudunun möhtaclığını anlamaq qüvvəsinə malikdir. O, dünyanın yaradıcısı haqqında düşünsə, getdikcə daha çox dəlillər toplayıb, elmə yiyələnə bilər. Lakin hisslər, meyllər fitri mərifətin zühuru üçün daimi bir maneədir. Amma insan həmin meyillərin tüğyanının qarşısını almaq qərarına gəlsə, ruhunda Allahına doğru bir yol açılar. Allaha yönəlmiş diqqət gücləndikcə, fitri mərifət də güclənər və insan Allaha daha da yaxınlaşar.

Məhz bu zaman insanın kamilləşmə fəaliyyəti həqiqi və fitri məqsədə doğru üz tutur. İnsan azad iradə və seçimlə Allahla əlaqə yaratmaq üçün səy göstərir, eləcə də, öz möhtaclığını və acizliyini etiraf edir. Məhz bu zaman insan özünə və başqalarına məxsus hesab etdiyi hakimiyyəti həqiqi sahibinə qaytararaq, Allahın əzəmət ridasını Ona təqdim edir. «Əhzab» surəsində buyrulduğu kimi «sitəmkar və nadan olan insan» xalis bəndəlik məqamına ucalanadək, nadanlığını davam etdirir.

Deyə bilərik ki, insan kamilliyinin zirvəsi xalis bəndəlik və zatən möhtaclığın etirafıdır. Kamilliyə çatmağın yolu isə, bəndəlik etməklə Allahın razılığına çalışmaqdır. Yəni Allahın istəyini öz istəyi bilmək! «**O ancaq ən uca olan Rəbbinin rizasını qazanmaq üçün belə edir**»[1].

Demək, əsl təkamül yolu Allaha bəndəlik və möhtaclığın etirafıdır. «**Mənə pərəstiş edin, budur doğru yol!**»[2] .

O fəaliyyəti Allaha yaxınlıq yolunda fəaliyyət hesab etmək olar ki, bəndəlik rənginə malik olmuş olsun. Allaha ibadətdən savayı heç bir iş insanı həqiqi kamilliyə apara bilməz.

## *İBADƏTİN HƏQİQƏTİ*

İbadət müxtəlif məna və əlaqələrə malik olub, genişlik baxımından bir-birindən fərqlənir:

1. İbadət, Allah qarşısında kiçilməklə icra olunan bir əməldir və zatən, Allahdan qeyrisi ilə bağlılığı yoxdur. Məsələn, namaz, oruc, həcc və s.

2. İbadət, Allaha yaxınlaşmaq məqsədi ilə icra olunan əməldir. Onun ilk ünvanı bəndələr da ola bilər. Məsələn, xüms, zəkat, cihad və s.

3. İbadət, düzgünlüyü Allaha yaxınlaşmaq məqsədindən olmasa da, Ona yaxınlaşma üçün icra olunan əməldir. Əgər insan istənilən bir halal işi Allahın razılığını qazanmaq üçün icra edərsə, bu iş ibadət hesab olunar.

---

[1] «Ləyl» surəsi, ayə 20

[2] «Yasin» surəsi, ayə 61

4. İbadət, itaətini müstəqil şəkildə vacib bildiyin varlığa itaət etməkdir. Bu işdə pərəstiş məqsədi olmasa da, onu ibadət hesab etmək olar.

Mümkündür ki, ibadət sözünü lüğətlərə əsasən araşdırsaq, onun müxtəlif mənaları ilə qarşılaşaq və bu mənaların biri o birindən daha dolğun görünsün. Amma bu kitabda bizim məqsədimiz, ayrı-ayrı kəlmələrin lüğət mənaları ətrafında geniş müzakirə açmaq deyil. İbadətin Allaha yaxınlaşma yolu olduğunu deyərkən nəqli yox, əqli dəlillərdən nəticə çıxarmışıq.

Artıq sübuta yetmiş, istifadə edə biləcəyimiz mətləblər aşağıdakılardır:

1. İnsan, öz ixtiyari hərəkəti ilə kamilliyə yetişməli olan bir mövcuddur. Onun əsl hədəfə çatması, azad və agah seçimindən asılıdır.

2. Onun ixtiyarında olan təbii və fitri qüvvələr, kamilliyə çatmaq üçün istifadə etməli olduğu vasitələrdir. Bu vasitələrin heç biri yararsız və artıq deyil.

3. İnsanın əsl hədəfi Allaha yaxınlıqdır və yaxınlığın həqiqəti Allah ilə vücudi əlaqədən ibarətdir.

4. Belə bir məqsədə doğru hərəkət, insan ruhundan baş qaldıran batini bir hərəkətdir. Bu hərəkətin maddiyyatla heç bir əlaqəsi yoxdur.

Öncə dediklərimizdən aşağıdakı nəticələri alırıq: Əvvəla, insanın kamilləşməsi, onun yalnız müsbət fəaliyyətlərindən asılıdır. Bütlərə ibadəti, zalıma itaəti tərk etmək Allaha yaxınlaşma yolu hesab olunmur. Çünki mənfini tərk etmək yaxşı iş hesab olunsa da, müsbətə bərabər deyil.

İkincisi, hər bir fəaliyyət o zaman təkamül istiqamətində yönəlir ki, son məqsədlə müsbət əlaqədə olsun.

Üçüncüsü, belə bir rabitəni bilavasitə qəlb, ruh, mənəviyyat dairəsində axtarmaq olar. Ona görə də, əsl ibadət azad və agah şəkildə, fitri istəyə çatmaq üçün icra olunan fəaliyyətdir.

Dördüncüsü, insanın digər fəaliyyətləri uyğun qəlb fəaliyyətinə bağlı olmaqla, təkamül yoluna yönəlməlidir. Bu istiqamətdən kənara yönəlmiş qüvvələr, əsl məqsədə müxalifdir və onların dayandırılması zəruridir. Digər bir

tərəfdən, hər hansı dayandırılmış qüvvə insan üçün itkidir. Demək yeganə doğru yol, bütün qüvvələri təkamül istiqamətinə yönəldib, onlara ibadət rəngi verməkdir. Belə olsa, heç bir qüvvə hədər getməz və insanın ixtiyar dairəsi Allahın istədiyi genişliyə çatar.

Bir qrup insan bu qənaətdədir ki, təkamül insan qəlbindən Allaha istiqamətləndiyi üçün bütün həyat fəaliyyətlərindən üz döndərib, bütün insanlarla əlaqəni kəsmək və xəlvət bir guşəyə çəkilərək, ibadətə məşğul olmaq lazımdır. Bu insanlar insanlığın son məqsədini düzgün tanısalar da, bu məqsədə aparan yolu düzgün seçməmişlər. Onlar insanın bir sıra ruhi xüsusiyyətlərini nəzərdən qaçırmışlar.

Diqqət olunmalıdır ki, insanın digər varlıqlardan üstünlüyü, təkamül yolunu azad şəkildə seçə bilməsidir. İnsan üçün nəzərdə tutulmuş kamillik, yalnız ziddiyyətlər və çəkişmələr ağuşunda ərsəyə gəlir və bu məqama çatmış insan, mələkdən üstün olur. İnsanın cəmiyyətdən uzaqlaşması onun ixtiyar və mübarizə meydanını daraldır, bir çox tərəqqi yolunda qırmızı işıq yandırır.

Bunu da nəzərdən qaçırmaq olmaz ki, insanların tutumu və istedadı müxtəlifdir. Hər bir insan öz qüvvəsinə uyğun meydan seçməlidir. Hər quş qartal kimi zirvəyə qalxa bilməz. Hər idmançı dünya çempionu ola bilməz. Hər halda, düzgün təkamül yolu bütün qüvvələrə meydan açan tədrici inkişafdır.

## *TƏKAMÜLDƏ ELMİN ROLU*

Artıq məlum oldu ki, insanın təkamülündə əsl bələdçisi qəlbdir. Qəlb, bəndəlik yolunda Allaha tərəf irəliləyir və insanın digər fəaliyyətləri də bəndəlik rəngi alaraq, insanın təkamülünə təsir göstərir. Qəlb o zaman uyğun fəaliyyətə başlayır ki, insan hədəf və yolu tanıyır, öz iradəsi ilə bu yola qədəm qoyur. Demək, bu hərəkətin əsas şərti mərifəttanıma və elmdir. İndi baxaq görək ki, təkamül yolunda elm nə rol oynayır. Elm özü kamillikdirmi? Əgər kamillikdirsə, əsl, nisbi, yoxsa müqəddəmidir?

Elmin əhəmiyyəti haqqında müxtəlif nəzəriyyələr vardır. Bəzi filosoflar belə güman edirlər ki, elm bütün kamilliklərin

əsasıdır. Varlıq aləminin bütün sualları qarşısında elmi dəlillərə malik olan insan, ən kamil insan hesab olunur. Digər bir qrup filosof isə bu qənaətdədir ki, insanın təhsil yolu ilə öyrəndiyi elmin onun kamilliyinə heç bir dəxli yoxdur. Hətta elmi, kamilləşmə yolunda maneə hesab edənlər də var.

Biz bütün deyilənləri araşdırıb orta bir yol tutmaq fikrində deyilik. Sadəcə, yalnız isbat olunmuş müddəalara əsaslanaraq, elmin təkamüldə oynadığı rolu müəyyənləşdirmək istəyirik.

İnsanın son kamilliyinin Allahla yaxınlıqdan ibarət olduğunu bildikdən sonra aydın olur ki, həmin son mərhələdəki elm, haqqında danışdığımız insanın oxumaqla öyrəndiyi «hüsuli elm» yox, fitrətə məxsus olan «hüzuri elm»-dir. Bəs insanın oxumaqla öyrəndiyi elmin əhəmiyyəti nədir?

Şübhəsiz ki, elm insan üçün kamillik sifətidir. İnsanın fitri ehtiyacı olan elm, insanın varlıq aləmi ilə tanışlığında mühüm rol oynayır.

Qeyd etdik ki, kamillik həm əsl, həm nisbi, həm də müqəddəmi ola bilər. İnsan vücudunun malik olduğu sifət, əsl kamillik sifəti olmaya da bilər. Onun kamillik sifəti hesab olunması üçün kamilliyə çatmaq üçün vasitə olması şərtdir. Əgər insanın malik olduğu bir sifət kamilliyin ziddinə işlədilə bilərsə, bu sifət şəxsiyyətin kamilliyi yox, süqutu üçün müqəddimədir.

Söhbətimizin əsas mövzusu olan elmi-hüsuli, başqa sözlə, oxumaqla öyrənilən elm iki növdür: nəzəri və əməli. Nəzəri elmlərin insan xarakteri ilə əlaqəsi olmasa da, onlardan bəziləri (məsələn, ilahiyyat) son məqsədi tanımaqda insana kömək edir. Bu elmlərdən Allaha yaxınlaşmaq üçün istifadə olunduqda, onları müqəddəmə kamilliyi hesab etmək olar. İnsanın dünya görüşündə müsbət rol oynayan, yaranış sirlərini açıqlayan, həyat ehtiyaclarının təminatında təsirli olan digər nəzəri elmlər, insanın Allaha yaxınlaşmasında ona yardımçı ola bilər. Amma təkamül yolunda insanın agah şəkildə kamilləşməsi əməli elmlərdən asılıdır.

Qeyd etməliyik ki, insanın səadətini bilavasitə təmin etmək qüvvəsinə malik olmayan hüsuli elmlər, yalnız köməkçi rol oynaya bilər.

Praqmatizm nəzəriyyəsinə görə, elm və sənət yalnız o zaman dəyərlidir ki, insan onun vasitəsi ilə özü üçün gözəl və rahat həyat qura bilsin. Biz isə onlara belə cavab veririk ki, nəinki elm və sənət, hətta dünya həyatının özü insan üçün əsl dəyər hesab oluna bilməz. Əsil dəyər Allahla yaxınlıqdır. Bu yolda insana yardımçı olan hər bir qüvvə, yalnız faydalı olduğu qədər dəyərlidir. Kamil insan üçün Allahpərəstlikdən uzaq bütün «iizm»lər puçdur. «**Allah haqq, müşriklərin Ondan başqa ibadət etdikləri isə, batildir**»[1].

Deməк, nə elmi təhsil, nə sənət, nə də fərdi və ictimai işlər mütləq dəyər deyil. Bütün bunlar yalnız Allahla yaxınlığa xidmət etdikdə dəyərli ola bilər.

Sual oluna bilər ki, axirət həyatı üçün dünyanın vasitə olduğunu nəzərə alaraq, praqmatizmi son məqsəd üçün faydalı hesab etmək olarmı? Axirət üçün faydalı iş yalnız nisbi əsas ola bilər. Hətta belə olduğu təqdirdə, elm və sənət nisbi əsas hesab olunmur.

İnsanın həqiqi səadəti bədən üzvləri və istehsal alətlərindən yox, insanın qəlbindən cücərir. Ona görə də, Allaha yaxınlaşmada əsas rolu qəlb ifa edir. Qəlbin fəaliyyətləri isə, nisbi hesab oluna bilər. Bütün digər əməllər bu fəaliyyətlərin sayəsində fayda verə bilir. Elm yaxşı əməllərə müqəddimə ünvanında dəyərlidir. Eləcə də, iman üçün müqəddimə olan elm dəyərli hesab edilir.

## *ELM, İMAN VƏ ƏMƏL ARASINDA ƏLAQƏ*

Zehni təsdiq mənasında götürülmüş iman elə elmdir. Elə elmlər var ki, onların kəsbində insanın iradəsi heç bir rol oynamır.

Digər bir qrup elmin müqəddiməsinin təhsili insanın ixtiyarında olsa da, bu ixtiyar davamlı deyil. Məsələn, bir səsin eşidilməsi və ya bir xəttin müşahidəsi ilə insan zehnində yaranmış ilkin anlayış, insanın ixtiyarında olmayan müqəddimə hesab oluna bilər. Lakin insanın iradəsi ilə əldə olunmuş elmi müqəddimə sonrakı təhsil üçün stimuldur. İnsanı

[1] «Həcc» surəsi, ayə 62

elmə sövq edən stimul həm maddi, həm də mənəvi ola bilər. Elm öyrənməkdə kiminin məqsədi ad-san, var-dövlət, kiminin məqsədi isə, Allahın razılığını qazanmaqdır. Allaha yaxınlıq məqsədi ilə elm təhsili ibadətdir. Amma bu işdə Allahı tanımaq ilkin şərtdir.

İnsan səadətinin əsası hesab olunan iman, həqiqəti bilmək deyil. Bir çox insanlar müəyyən bir həqiqəti bilsələr də, onu qəlbən qəbul etmək istəmirlər. Onlar mövcudluğuna inandığı bir həqiqəti düşmənçilik səbəbindən inkar da edə bilərlər. Bildiyini inkar etmək, bilmədiyini inkar etməkdən daha pisdir və insanın təkamülü üçün daha ziyanlıdır. «Nəml» surəsinin 14-cü ayəsində buyrulur: «**Ayələrimizin həqiqiliyinə daxilən möhkəm əmin olduqları halda, haqsız yerə təkəbbür göstərərək, onları inkar etdilər**».

Həzrət Musanın (ə) dilindən Firona xitabən buyrulur: «**Sən bunların məhz göylərin və yerin Rəbbi tərəfindən açıq-aşkar möcüzə olaraq endirildiyini, sözsüz ki, bilirsən**»[1]. Firon deyir: «**Mən sizin üçün özümdən başqa bir tanrı olduğunu bilmirəm**»[2].

Firon kimi bildiyini inkar edənlər, İslam peyğəmbərinin dövründə də var idi. Belə bir inkarın səbəbi, nəfs istəklərinin qarşısında itaətdir. Onlar həqiqəti qəbul etməklə öz azadlıqlarını itirəcəklərindən qorxurlar. «Qiyamət» surəsinin 5-ci ayəsində buyrulur: «**Lakin insan bundan sonra da günah etmək, pis işlər görmək istəyir**».

Demək iman, əqlin təsdiq etdiklərini qəlbin qəbul etməsi və onun şərtlərinə əməl etmək qərarına gəlməsidir. İman tanımadan asılıdır, amma eynən elmi deyil.

Buradan iman və elm arasındakı əlaqə məlum olur. İman əməl yox, əməlin əsası, onun istiqamətvericisidir. Əməlin necəliyi imandan asılıdır. İmana əsaslanan əməl, insan səadətində təsirlidir. Əksinə, imana əsaslanmayan əməl dünyası həyat üçün faydalı olsa da, insanın əbədi səadətində təsirsizdir. «Nur» surəsinin 39-cu ayəsində buyrulur:

---

[1] «İsra» surəsi, ayə 102

[2] «Qəsəs» surəsi, ayə 38

«**Kafirlərin əməlləri ucsuz-bucaqsız səhradakı ilğıma bənzər. Susuzluqdan ürəyi yanan, onu su bilər. Gəlib ona yetişdiyi zaman onun heç nə olduğunu bilər**». İbrahim surəsinin 18-ci ayəsində oxuyuruq: **«Rəbbini inkar edənlərin əməlləri, fırtınalı bir gündə küləyin sovurub apardığı külə bənzər**». «Fürqan» surəsinin 23-cü ayəsində belə buyrulur: «**Biz onların əməllərini qəsdən dağınıq zərrələrə döndərərik**».

Nəhayət, belə bir nəticə əldə etdik ki, insanın həqiqi kamillik yolunda atacağı ilk addım, imandır. Bu addım bütün təkamül mərhələlərinin ruhudur. İkinci addım, qəlbin Allaha diqqətdən ibarət olan fəaliyyətidir. «**Allahı çox zikr edin. Olsun ki, nicat tapmışlardan olasınız**»[1].

Qəlb nə qədər diqqətli olarsa, insan bir o qədər çox inkişaf edər. İnsanın bir an diqqətli olması, onun illər uzunu ibadətindən təsirli ola bilər. Üçüncü addım, insanın Allahı xatırlayaraq onun dəlillərini, qüdrətini, əzəmətini, hikmətini düşünməsidir. Davamlı zikr, Allaha məhəbbətə səbəb olur. «Ali-imran» surəsinin 191-ci ayəsində buyrulur: «**O kəslər ki, ayaq üstə duranda da, oturanda da, uzananda da Allahı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər...**».

Növbə bədən fəaliyyətlərinə çatır. İman üçün şərt olan ümumi qərar müxtəlif iradə qəliblərində müxtəlif cür cilvələnir. Bu cilvələr imanın qüvvətlənməsinə təsir göstərir. «Taha» surəsinin 14-cü ayəsində buyrulur: «**Məni xatırlamaq üçün namaz qıl**». «Fatir» surəsinin 10-cu ayəsində oxuyuruq: «**Pak söz Ona tərəf yüksələr və pak sözü də yaxşı əməl qaldırar**».

İnsanın iradəsi onun imanının ziddinə olsa, iman tədricən zəifləyər. İnsan iradəsinin təcəssümü olan əməl salehdirsə, iman qüvvətlənəcək, çirkindirsə iman süquta uğrayacaq:

---

[1] «Cumə» surəsi, ayə 10

**«Allaha verdikləri vədə xilaf çıxdıqlarına və yalan danışdıqlarına görə, Allah onların qəlbinə qiyamət gününədək nifaq saldı»**[1].

**«Sonra da Allahın ayələrini yalan hesab edib məsxərəyə qoymaqla, pislik edənlərin aqibəti daha pis oldu»**[2].

## *İRADƏ*

Ötən söhbətlərdə insanın təkamül yolu, son kamal həddi təhlil olundu. Bu prosesin dəqiqliklə araşdırılması, əxlaq elmi və fiqhin vəzifəsidir. Bizim isə son söhbətimiz ibadət mərhələlərinin qət olunması və bəndəlik vəzifələrinin icrası üçün qəti qərar məqsədi ilə necə hazırlıq görülməsidir.

Bilirik ki, hər bir canlı mövcudda iki əsas xüsusiyyət vardır: idrak və iradi hərəkət. Bu iki xüsusiyyətin məcmusu, canlı sinfin imtiyazını təşkil edir.

Canlı varlıqların ən üstünü olan insanda da bu iki xüsusiyyət daha geniş və dərin şəkildə mövcuddur. Sadə dillə desək, psixologiyası iki mexanizmdən ibarətdir: idrak və iradə mexanizmləri. Bu iki mexanizm o qədər oxşar və bağlıdır ki, bəzən ən diqqətli alimlər belə onları fərqləndirə bilmir. İradənin necə ortaya çıxmasından xəbərdar olmaq üçün onun mənşəyi olan dərketmə qüvvələrinə nəzər salaq. Hələ qədim zamanlardan insanın idrak qüvvələrini araşdıran alimlər, onları müxtəlif şəkillərdə qruplaşdırmışlar. Dərin elmi söhbətlərə varmadan, özünütərbiyə prosesində faydalı ola biləcək ümumi icmalla kifayətlənirik.

## *İDRAK MEXANİZMİ*

İnsan idrakı müxtəlif surətlərdə gerçəkləşir. Bir qrup dərketmə qüvvəsi fiziki, kimyəvi və fizioloji fəaliyyət göstərməklə yanaşı, xarici aləm və hiss üzvləri arasında yaranır. Məsələn, görmə, eşitmə, qoxulama, dadma və

---

[1] «Tövbə» surəsi, ayə 77

[2] «Rum» surəsi, ayə 10

toxunma. Digər bir qrup dərketmə qüvvəsi kənar maddəyə toxunmadan işə düşür: məsələn aclıq və susuzluq.

Daha bir qrup idrak qüvvəsi xüsusi psixoloji qüvvələr vasitəsi ilə insan zehnində yaranır. Məsələn, görmə, eşitmə, qoxulama, dadma və toxunma. Digər bir qrup dərketmə qüvvəsi, kənar maddəyə toxunmadan işə düşür: Məsələn aclıq və susuzluq.

Daha bir qrup idrak qüvvəsi, xüsusi psixoloji qüvvələr vasitəsi ilə insan zehnində yaranır.

İnsanın özünümüşahidəsindən aydın olur ki, xarici hiss üzvləri ətraf aləmə qapandıqdan sonra belə, onların əldə etdiyi məlumatlar insan yaddaşında qorunur.

Zehnin digər bir fəaliyyət növü «varlıq», «yoxluq», «mümkün», «imkan» kimi ümumi məfhumların dərkinə aiddir. Zehnin başqa bir fəaliyyət növü müxtəlif məfhumlar arasında vəhdət yaratmaq, iki mühakimənin tərkibinə əsasən, üçüncü mühakimənin dərkinə nail olmaqdır.

Zehni mühakimə nəzəri və əməli olmaqda iki qismə bölünür. Bəzən nəzəri idrakı «nəzəri əql», əməli idrakı «əməli əql» adlandırırlar. Əslində bu iki qüvvə bir-birindən ayrı deyildir. Əql, hərəkət və onun nəticəsi arasındakı əlaqəni dərk edir. Onun iradə ilə birbaşa əlaqəsi yoxdur.

Dərketmə qüvvələrindən biri, nəfsin özünə olan elmidir. Yəni bütün mövcudlar öz daxili qüvvələrindən xəbərdardırlar.

Hamıya məxsus dərketmə qüvvələrindən əlavə telepatiya, hipnoz kimi xüsusi qüvvələr də vardır.

Bütün dərketmə qüvvələrinin fövqündə Allahın peyğəmbərlərə göndərdiyi vəhy dayanır. Vəhy bir çox insanlarda müşahidə olunanan ilhamın oxşarıdır. Məsələn, Musanın (ə) peyğəmbərlik məqamına çatması onun anasına ilham olundu. Bir çox elmlərin məsum imamlara ilham olunduğu da bir gerçəklikdir. Amma adi insanlar daim şeytani vəsvəsələrlə qarşılaşdıqları üçün onlarda müşahidə olunan uyğun halı əsaslı hesab etmək olmaz.

## *İRADƏ MEXANİZMİ*

İnsanda iradə və iradi hərəkətin mənşəyi olan meyillər və cazibələr mövcuddur. Psixoloqlar müxtəlif təbii və fitri meyilləri araşdıraraq, müxtəlif cür qruplaşdırmışlar. Biz isə, yalnız özümüzdə müşahidə etdiyimiz meyillər haqqında danışacağıq.

Yemək və içmək kimi bəzi meyillər orqanizmdəki kimyəvi və fizioloji proseslərlə əlaqəlidir. Bu meyllər orqanizmdə uyğun ehtiyaclar yaranan kimi baş qaldırır. Digər bir qrup meyllər bədəndə xüsusi halətlər yaradır. Məsələn, insanda intiqam hissi baş qaldırdığı zaman o qəzəblənir, çöhrəsinin rəngi dəyişir. Başqa bir qrup meyillərə «atifi» hisslər daxildir. Bu hisslərə misal olaraq ailə üzvləri arasındakı şəfqət və mehribançılığı göstərmək olar.

Digər bir qüvvə, insan xarakterindəki həqiqətaxtarma hissidir. İnsan daim çalışır ki, hadisələrin mahiyyətini anlayıb, həqiqətdən xəbər tutsun. İnsan xarakterindəki meyillərdən biri də öz qüdrətini artırıb, təsir dairəsini genişləndirmək meylidir.

Xarakterdə əhəmiyyətli yer tutan hisslərdən biri etibar, məqam, şəxsiyyət azadlığı qazanmaq meylidir.

İnsanı həqiqi kamillik qarşısında baş əyməyə vadar edən, onun zahiri və mənəvi gözəlliklərə olan fitri meylidir. Bütün meyillərin əsasını insanın özünə olan məhəbbəti təşkil edir. Bu meyil, mövcudluğu qoruma və mümkün kamilliklərə yiyələnmədən ibarətdir. Təhlükədən qaçma, qidalanma, şəhvət, intiqam, ailə məhəbbəti kimi bütün hisslər insanın özünə məhəbbətindən doğur.

Sözsüz ki, bu bəhsdə bütün fitri meyilləri sadalaya bilmədik. Bu meyillər ayrı-ayrılıqda, eləcə də, qrup şəkilində fəaliyyət göstərə bilərlər. Onu da qeyd edək ki, fitri meyillərin elm və idrakdan ayrılıqda zikr olunması, onların şüursuz olması məqsədini daşımır. Sözsüz ki, iradə mexanizmi idrak mexanizmi ilə sıx əlaqədədir.

Hər bir meyl xüsusi bir hisslə müşayiət olunur. Məsələn, yeməyə iştaha, aclıq hissindən başlayır. Bu bağlılıq o qədər güclüdür ki, tərəflər vahid halda görünür.

Bütün meyllər və istəklər də münasib dərketmə qüvvəsi ilə bağlıdır. Uyğun misallardan idrak mexanizminin iradə mexanizmini necə hərəkətə gətirməsi aydın görünür. Hətta bir fitri meyli işə salmaq üçün bir neçə dərketmə qüvvəsi eyni zamanda işə düşə bilər.

Bu iki mexanizm arasında xüsusi əhəmiyyət kəsb edən digər bir əlaqə də vardır. Məsələn, yemək qoxusu duyan insanın iştahası oyanır və ya müəyyən bir səhnənin müşahidəsindən insanda nifrət yaranır. Bu bağlılıq təbii olmadığından, olduqca maraqlıdır. Bəzən insan elə güman edir ki, onun bəzi meyilləri tamamilə səbəbsiz oyanmışdır və bu işə təəccüb edir. Amma insanın nəzərindən qaçan bu əlaqə, daha çox əhəmiyyətə malikdir. İnsan elə yaradılmışdır ki, o bir dəfə yediyi dadlı xörəyin qoxusunu sonralar duyanda, həmin yeməyin dadını xatırlayır və iştahası oyanır. İnsanın bir dəfə gördüyü səhnədən ömrünün sonunadək təxəyyülündə iz qalması, onu olduqca ehtiyatlı davranmağa məcbur edir. «İsra» surəsinin 36-cı ayəsində insana xəbərdarlıq olunur: «**Bilmədiyin bir işin ardınca getmə. Çünki qulaq, göz və ürək hər biri sorğu-sual olunacaqdır**».

Demək, insanın xatirələri onun qəlb halətinə daimi təsir göstərir. Saleh insanlarla görüş, dini məclislərdə iştirak, müqəddəs yerlərin ziyarəti insan xatirəsində canlandıqca Allah yada düşür. İnsan diqqətini doğru yola yönəltməkdə bu xatirələrdən kömək alır. Əksinə, insan təxəyyülünü çirkləndirmiş günah səhnələri onun diqqətini həqiqətdən yayındırır. Şəhvət yaradan səhnələrin tamaşasını haram buyuran İslam, insan təxəyyülünün paklığını yüksək qiymətləndirir və onu insan səadətində təsirli bilir. Qurani-şərifdə fitri paklığı qorumaq məqsədi ilə insanın seçdiyi dostun, onun səadətindəki əhəmiyyətinə işarə olunur: «**Vay halıma! Kaş filankəsi özümə dost etməyəydim. And olsun**

**ki, Quran mənə çatdıqdan sonra məni doğru yoldan o sapdırdı»**[1].

Həvarilər İsa peyğəmbərdən soruşdular: «Kiminlə yoldaşlıq edək?» İsa peyğəmbər buyurdu: «Görüşü Allahı xatırladan, danışığı elminizi artıran, rəftarı axirəti sevdirən insanları dost seçin».

## *MEYİL VƏ ƏLAQƏNİN İDRAKDA ROLU*

İdrak qüvvələrinin istifadəsi çox zaman bizim ixtiyarımızdadır. İstədiyimiz vaxt istənilən bir səhnəyə tamaşa edə bilər, istənilən vaxt bu səhnəyə göz yuma bilərik. Belə təsəvvür oluna bilər ki, əgər göz açıqdırsa, o hökmən qarşısındakı səhnəni görməlidir. Lakin təcrübə başqa söz deyir. İnsan açıq gözlə qarşısındakı səhnəni görməyə də bilər. İnsan qulağına yetişən səsi eşitməyə də bilər. Bu hal o zaman baş verir ki, insanın diqqəti tamam başqa bir istiqamətə yönəlir. Demək, diqqət yoxdursa, dərketmə də yoxdur.

Diqqətin olub-olmaması çox zaman insanın meylindən asılı olur. Yəni insan dərk etməyə meyilli olduqda idrak hasil olur, meyl olmadıqda, idrak da fəaliyyət göstərmir. Məsələn, uşaq ağlayarkən onun səsini birinci ana eşidir. Hətta ana öz körpəsinin səsinə yuxudan oyanır. Hansı ki, bu səsə başqa bir şəxs yuxudan oyana bilməz.

Meyl təkcə hissi idraka təsir göstərmir. O, təxəyyülə, ağıla, düşüncəyə də təsirlidir. Məsələn, insan maraqlandığı şeyi asanlıqla yadda saxlayır. Mütəfəkkir maraqlandığı məsələlərdə daha çox irəliləyiş əldə edir. Bir çox insanlar müəyyən bir məsələnin analizində əvvəlcədən maraq göstərdikləri nəticəyə gəlirlər. Bəzən insanın doğru olmayan bir nəticəyə marağı onu azdırır və insan həqiqətdən uzaq düşür. Meylinin ziddinə olan bir nəticəyə gəlmiş insan, şübhəyə düşür. Açıq-aşkar dəlillər şübhəni aradan qaldırdığı zaman hafizədə xətalar yaranır və dəlillər qısa müddətdə unudulur. Müəyyən amillər həqiqəti ona xatırlatdığı zaman, yenə də qəlbən qəbul etməyib, inkar yolunu seçir. «**Onlar yalnız zənnə və nəfslərindən gələn istəklərə**

---

[1] «Fürqan» surəsi, ayə 28-29

**uyurlar. Halbuki, onlara haqq yolu göstərən rəhbər göndərilmişdi»**[1].

Demək, yalnız daxili meyillərinə qələbə çalmış insanların gəldikləri nəticələr etibarlıdır. Əgər insanın cilovu nəfs istəklərinin əlindədirsə, doğru nəticəyə heç bir ümid yoxdur.

Hətta hüzuri elmlərə münasibətdə də daxili meyillər mühüm rol oynayır. Bu meyillər diqqəti əsl məsələdən yayındıraraq, insanı qəflətə düçar edirlər. Bu qəflət səbəbindən, insan hüzuri elmin bir mərtəbəsi olan Allahpərəstlik meylinə biganəlik göstərir.

İdrak qüvvələrindən yalnız o zaman düzgün faydalanmaq mümkündür ki, qəlb nəfs istəklərindən pak, zehn təxəyyül mühakiməsindən azad olsun. Tərəqqi yalnız təqvadadır. İnsan yalnız təqva ilə zinətlənir, mənəviyyat nurundan bəhrələnmək istedadı qazanır.

**«Şübhəsiz ki, bunda qəlb sahibi, eşitdiyinə qulaq asan bir kimsə üçün ibrət vardır»**[2].

**«Bu kitabda şübhəyə yer yoxdur və o, müttəqilərə doğru yol göstərir»**[3].

**«Nəfsini təmizləyən mütləq nicat tapacaqdır»**[4] .

**«Əgər Allahdan qorxsanız, O, sizə haqla-nahaqqı ayırd edən nur verər»**[5].

**«Ey iman gətirənlər! Allahdan qorxun və onun peyğəmbərinə iman gətirin ki, Allah sizə öz mərhəmətindən ikiqat pay versin və sizə nur bəxş etsin»**[6].

Doğru düşüncə tərzindən məhrum olan insana şeytan hakim kəsilir və bu insan cəhalətə düçar olur: **«Nəfsini özünə tanrı edən insanı Allahın necə azdırıb, qulağını və qəlbini**

---

[1] «Nəcm» surəsi, ayə 23
[2] «Qaf» surəsi, ayə 37
[3] «Bəqərə» surəsi, ayə 2
[4] «Şəms» surəsi, ayə 9
[5] «Ənfal» surəsi, ayə 29
[6] «Hədid» surəsi, ayə 28

**möhürlədiyini, gözünə də pərdə çəkdiyini gördünmü? Allahdan başqa kim onu doğru yola qaytara bilər?!»**[1] .

Şeytan haqqında əzəldən belə yazılmışdır ki, «**hər kəs şeytanla dostluq etsə, şeytan onu yoldan çıxarıb cəhənnəm əzabına sürükləyər**»[2].

«**Hər kəs Rəhmanın zikrindən boyun qaçırsa, biz ona şeytanı urcah edərik və o şeytanın yaxın dostu olar**»[3].

## *İRADƏ VƏ SEÇİM*

Müxtəlif dərketmə qüvvələrinə və onların xüsusiyyətlərinə diqqət etdikdə, insanda iradənin necə fəaliyyətə başlaması aydın olur. İnsan əvvəlcə özündə bir növ çatışmazlıq hiss edir və bu çatışmazlıqdan əziyyət çəkməyə başlayır. Bir zaman dadılmış ləzzət yada düşür, onun ardınca gəzib əldə edə bilməyən insan, əzab çəkir. İnsan bu əzab-əziyyətdən qurtulub, ləzzət meylini təmin etmək etmək üçün çalışmağa başlayır.

İnsan fitrətən nöqsanların aradan qaldırılması və kamillik qazanma yoluna istiqamətləndirilmişdir. O, daim ağrıdan qaçıb, ləzzətə qovuşmaq arzusundadır. Bu zaman insanda hərəkətə gəlmiş fəaliyyət həm psixoloji, həm də fiziki ola bilər. İnsan ləzzət əldə etmək üçün hətta başqalarına da yardım göstərə bilər. Sanki onun qəlbindəki ağrı, başqalarının narahatlığından yaranmışdı. İnsan başqalarını sevindirməkdən elə ləzzət ala bilər ki, ağrı-acısını unudar.

İnsan bəzən öz daxili ehtiyaclarını təbii yolla hiss edir. Məsələn, insanın suya olan ehtiyacı bu qəbildəndir. Bəzən qorxulu bir səhnəni müşahidə etməklə, insanda təbii olaraq özünümüdafiə hissi oyanır.

Fitri meyillərin oyanmasında xarici amillər də təsirli rol oynaya bilər. Məsələn, ilahi peyğəmbərlərin bəşəriyyəti dəvəti, onların daxilindəki Allahpərəstlik hissini oyadır.

Əgər bir anda yalnız bir meyil oyansa, insan dərhal onu təmin etmək qərarına gəlir və əlverişli şərait vardırsa, fəaliyyətə

---

[1] «Casiyə» surəsi, ayə 23

[2] «Həcc» surəsi, ayə 4

[3] «Zuxruf» surəsi, ayə 36

başlayır. Amma belə də ola bilər ki, bir anda bir neçə meyil oyansın. Bu zaman hansı meyil daha güclüdürsə, əvvəlcə onun təmini üçün fəaliyyət göstərir. Məsələn, uşaqlar oynamağı yeməkdən üstün tutur. Ana ac olsa da, övladını doyurmağa üstünlük verir. Gənc tələbə mütaliəni, təqvalı insan ibadəti, gənc mücahid vuruşu digər şeylərdən daha üstün tuta bilər. Məhz bu zaman insanın gizli istedadları aşkarlanır, o səadət və bədbəxtliyə düçar olur. Dəfələrlə deyildiyi kimi, bu ziddiyyətlər insanın yaranış fəlsəfəsinə tam uyğundur. Sual oluna bilər ki, bir neçə meyil eyni zamanda oyandığı vaxt, insan hansı meylin qalib gələcəyini gözləməlidir, yoxsa düşüncəsini işə salıb, ağıl yolu ilə seçim aparmalıdır?

İnsan oturub gözləsə ki, daha güclü meyl qalib gəlib işə düşsün, heç şübhəsiz ki, bədbəxtliyə düçar olar. İnsanın nəfsə bu sayaq kor-koranə itaəti, Quranda «qəflət» adlandırılmışdır: «**Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da, məhz onlardır**»[1].

Növbəti sual budur ki, insan eyni zamanda oyanmış meyillərdən hansına üstünlük verməlidir? Bu suala üç şəkildə cavab vermək olar:

1. Əgər eyni zamanda bir neçə istək baş qaldırmışsa, insan fitri olaraq ən ləzzətli meylə üstünlük verir. Bu doğru yoldurmu? Çox dəyərli bir avtomobili qaçırmaq qərarına gəlmiş şəxs gördüyü işin əvvəlinin ləzzət, sonunun əzab olacağını, düşüncəsini işə salmadan anlaya bilərmi? Yəni ləzzət birinci addımda duyulan ləzzət deyil. Ləzzətə əsaslanaraq hər hansı bir meylə üstünlük vermək üçün bu meylin son mərhələyədək ləzzətli olub-olmadığından xəbərdar olmaq lazımdır. Məsələn, insan üçün ən üstün və ən etibarlı ləzzət Allahla yaxınlıqdır.

2. Qeyd etmişdik ki, fitri meyillər iki əsasa malik ola bilər: İnsanın varlığının qorunması və kamilliyin əldə olunması. Məsələn, insan öz varlığını qorumaq üçün qidalanır və ya özünü kamilləşdirmək üçün Quran oxuyur.

---

1 «Əraf» surəsi, ayə 179

Meyil seçimində ikinci yol budur ki, meylin əsasına diqqət olunsun və onun, insanın varlığı və kamilliyi üçün nə dərəcədə faydalı olduğu nəzərə alınsın.

3. Meyil seçimində üçüncü yol kamillik üçün faydalılığa diqqət yetirilməsidir. İnsanın fiziki varlığı, əsl yaranış məqsədi olan kamillik üçün bir şərtdir. Demək, insan varlığının təmininə yönəlmiş meyillər, kamillik meyilləri ilə müqayisədə ikinci dərəcəlidir.

## *SON NƏTİCƏ*

Aydın oldu ki, insan təbii və ictimai səhnələr qarşısında bitərəf tamaşaçı mövqeyi tutmamalıdır. Əksinə, bu işdə öz insani qüvvələrini işə salıb, aparıcı rol oynamalıdır. O, öz iradə və agah fəaliyyəti ilə bütün meyilləri həqiqi kamillik istiqamətində yönəltməlidir.

Heç şübhəsiz ki, bütün bəşəriyyəti doğru yola yönəldəcək yeganə qüvvə ağıldır. Bu qüvvənin güclənməsi, kamillik yolunda olduqca mühüm rol oynayır. Sokrat əql, elm və hikməti «əsl fəzilət» adlandırmışdır. Ərəstun isə belə qeyd edir ki, elm və hikmətə malik olub, onu işlətməmək səbəbindən əxlaqi fəzilətlərdən məhrum olanlar çoxdur. Biz də Ərəstunun bu fikrinə qoşuluruq ki, elm və hikmət fəzilətin əsası ola bilməz və idrak qüvvələrinin əsas işi təhrik deyil. Hətta səmavi hidayətlər də öz-özlüyündə iradə yarada bilməz. «**Onlara ayələrimizi verdiyimiz şəxsin xəbərini də söylə. O imandan döndü. Şeytan onu özünə tabe etdi və o, azanlardan oldu**»[1].

Səadət üçün kafi şərt, Allahpərəstlik istəyinin qələbəsi və nəfs istəklərinin süqutudur. Amma buna da şübhə yoxdur ki, insanın düşüncə qüvvəsi onun iradəsinin müəyyənləşməsində mühüm rola malikdir. Seçim hazırlığında bizə kömək edən qüvvə də, düşüncədir. Ona görə də, biz əqlin köməyi ilə yolumuzu təyin etməli və ilahi nura qovuşmaq üçün çalışmalıyıq.

Doğru yolu tanımaqda ağıl qüvvəsi çox əhəmiyyətlidir. Lakin doğru yolun incəliklərini tanımaq, ağılın qüvvəsi daxilində

---

[1] «Əraf» surəsi, ayə 175

deyil. Həqiqi doğru yolun tam kəşfi, ilahi vəhy və dini proqramlar vasitəsi ilə mümkündür. Demək, dini elmləri öyrənərək dini dünya görüşünü artırmaq zəruridir. Bütün bu həqiqətlər əql və düşüncə yolu ilə əldə olunur.

Söhbətlərimizin sonunda bizim üçün çox böyük əhəmiyyət kəsb edən məsələ, ilahi yaxınlıq məqamına çatma meyli və bu meylin gücləndirilməsinin yollarını öyrənməkdir.

Yuxarıda qeyd edildi ki, fitri meyil daxili bir hərəkət və ya xarici mühitlə təmas nəticəsində oyanır. Adətən, mövcudluğu qoruma meyilləri ya təbii, ya da yuxarıda göstərilən iki yolla oyana bilər. İnsanın özünüqoruma meyilləri onun iradəsindən asılı olsaydı, qəflət və unutqanlıq səbəbindən bir çox çətinliklər yarana bilərdi. Bu çətinliklər isə, təkamül üçün zəruri olan şəraiti korlaya bilər. Yalnız zəruri şərait yarandıqdan sonra növbə insanın iradi fəaliyyətinə çatır. İnsanın həqiqi kamilliyi onun iradəsi ilə həyata keçdiyindən, seçmə imkanı böyük olduqca, iradi kamilləşmə də yüksək olur. Demək, kamilliyə aparacaq meyllərin oyadılması və fəaliyyəti, birbaşa onun özündən asılıdır.

Meyillər fəaliyyətə başlayıb insana ləzzət və ya ağrı gətirdiyi an, insan bu meyillərə daha çox diqqət göstərir. Təkrar gerçəkləşən meylə maraq yaranır. Məhz bu zaman, «filan işi, filan şeyi, filan şəxsi sevirəm» deyirlər. Bu bağlılığın şərti, nəfsin məhbuba ardıcıl diqqətidir.

Əgər öz fəaliyyətimizə istiqamət verib onu həqiqi kamillik istiqamətinə yönəltsək, diqqətimizi ardıcıl şəkildə həmin məqsədə məşğul etməliyik ki, bu məqsədə məhəbbət yaransın. Əgər insan qəlbində allahpərəstlik meylinə digər meyllərlə bərabər yer verilsə, həmin meylin təkamülü mümkünsüz olacaq. Amma əsl kamilliyə çatmaq üçün bütün digər meyillər allahpərəstlik meylinə bir növ xidmətçi olmalıdır.

Bu işdə yalnız əməli proqramla müvəffəqiyyət qazanmaq olar. Bu proqramın üç əsas maddəsini şərh edirik:

1. İbadət, xüsusi ilə də vacib namazları vaxtında və qəlbin iştirakı ilə yerinə yetirin. «**Həqiqətən möminlər nicat**

**tapmışlar! O kəslər ki, namazlarında müti olub, boyun əyərlər»**[1].

İmkan daxilində münasib vaxt və münasib bir yerdə Allahı düşünmək üçün xüsusi vaxt ayırın. «**Səhər-axşam yalvararaq və qorxaraq səsini qaldırmadan Allahını yad et**»[2]. Əgər insan bu işi fasiləsiz davam etdirə bilsə, Allahla ünsiyyətin şirinliyini dadar, maddi ləzzətlərə olan maraq insanı tərk edər.

Başqalarının ehtiyacını ödəmək (infaq) və özünün ehtiyaclı olduğunu ətrafdakılara vermək (isar), nəfs istəklərindən uzaqlaşmağın gözəl vasitəsidir.

«**Nəfsinin xəsisliyindən, tamahkarlıqdan qorunanlar-məhz onlar nicat tapıb səadətə qovuşanlardır**»[3].

«**Sevdiyiniz şeylərdən sərf etməyincə, savaba çatmazsınız**»[4].

«**(Ya Məhəmməd) Onların mallarından sədəqə almaqla, onları pak etmiş olarsan**»[5].

Qurani-şərifdə namazla zəkat kəlmələri adətən qoşa işlədilir. Bəlkə də bu onların bir-birini tamamlamasına işarədir: «**...O, mənə diri olduqca namaz qılıb zəkat verməyi tapşırdı**»[6].

2. Hər günün müəyyən bir vaxtını Allahın sifətlərini, insanın yaranış məqsədini, nemətləri, yolun uzaqlığını və vaxtın azlığını, dünyanın müvəqqətiliyini və ölümü, xəstəlikləri və bəlaları düşünməyə sərf edin. «**Yeri döşəyən, orada möhkəm dağlar və çaylar yaradan, bütün meyvələrdən cüt-cüt yetişdirən, gecəni gündüzlə örtüb bürüyən Odur. Şübhəsiz ki, bunda düşünən insanlar üçün dəlillər vardır**»[7].

3. Kamilliyə yönəlmiş doğru məqsəd və yolun daim yadda qalması üçün gündəlik proqram tərtib edib, bu proqramda Quran qiraəti, dini mətnlərin mütaliəsi, fiqh və əxlaqla məşğul

---

[1] «Möminun» surəsi, ayə 1-2
[2] «Əraf» surəsi, ayə 205
[3] «Həşr» surəsi, ayə 9
[4] «Ali-imran» surəsi, ayə 92
[5] «Tövbə» surəsi, ayə 103
[6] «Məryəm» surəsi, ayə 31
[7] «Rəd» surəsi, ayə 3

olmaq üçün vaxt ayırmaq lazımdır. «**And olsun ki, biz Quranı ibrət almaq, öyüd-nəsihət qəbul etmək üçün belə asanlaşdırdıq. Amma hanı ibrət alan, öyüd-nəsihət qəbul edən?!**»[1] .

Bəs insan ilahi hədəfdən yayınmamaq üçün nədən qorunmalıdır?

1. Nəfsin heyvani ləzzətlərə məhəbbətinin qarşısını almaq üçün maddi ləzzətlərdən istifadədə ifrata getməmək lazımdır. Maddi ləzzətlər yalnız o zaman faydalı olur ki, insanın fiziki və mənəvi sağlamlığı üçün şərait yaradır. Oruc tutmaq, çox yeməmək, az danışmaq, az yatmaq, orta həddi gözləmək insan səadəti üçün mühüm şərtdir. «**O kəslər ki, lüzumsuz işlərdən üz döndərərlər...**»[2] . «**Oruc tutmaq sizin üçün faydalıdır**»[3].

2. Heyvani meyillərin oyanmaması üçün təxəyyülü pis təsəvvürlərdən, fikirlərdən qorumaq lazımdır. İnsan gözünü şəhvət yaradan səhnələrdən, qulağını batil sözlərdən hifz etməlidir. «**Qulaq, göz, qəlb, hər biri sorğu-suala çəkiləcək**»[4].

3. İnsan öz düşüncəsini yanlış fikirlərdən qorumalı, əsassız şübhələrdən, əlçatmaz arzulardan çəkinməlidir. «**...Allahın ayələrinin inkar edildiyini və onlara istehza olunduğunu eşitdiyiniz zaman ... onlarla bir yerdə əyləşməyin**»[5].

«Vəsailuş-şiə»-də oxuyuruq: «İnsan qulaq asdığı adama pərəstiş edir. Danışan şəxs Allah tərəfindəndirsə, pərəstiş də Allaha aid olacaq. Yox, əgər danışan şeytan tərəfindəndirsə, pərəstiş də şeytana aid olar».

Proqramın tənzimi və icrasında hökmən orta həddi gözləmək lazımdır. İnsanın özünü gücü çatmayan bir işə məcbur etməsi nəfsi qiyama qaldırır, fiziki və psixoloji xəsarətlərə səbəb olur.

Proqram tərtib edərkən agah və etibarlı bir şəxslə məsləhətləşmək yaxşı olardı. Proqram tərtib edildikdən sonra

---

[1] «Qəmər» surəsi, ayə 17

[2] «Möminun» surəsi, ayə 3

[3] «Bəqərə» surəsi, ayə 184

[4] «İsra» surəsi, ayə 36

[5] «Nisa» surəsi, ayə 140

süstlüyə yol vermək olmaz. Götürülmüş öhdəliyi hər hansı bir bəhanə ilə pozmaq, pis nəticələrə səbəb ola bilər. Hər halda, bu işdə Allaha sığınıb, Ondan yardım diləmək zəruridir.

## Mündəricat


ÖZÜNÜTANIMANIN ZƏRURƏTİ ........................................................ 3
İZAH ................................................................................................. 4
KAMAL – KAMİLLİK ......................................................................... 6
KAMİLLİKLƏR SİLSİLƏSİ .................................................................. 7
KAMİLLƏŞMƏ HƏRƏKƏTİ, ONUN AMİLLƏRİ VƏ ŞƏRTLƏRİ ....... 8
ELMİ VƏ QEYRİ-ELMİ HƏRƏKƏT.......................................................... 9
TƏBİİ VƏ QEYRİ- TƏBİİ DƏRKETMƏ.................................................... 9
İXTİYARİ VƏ QEYRİ-İXTİYARİ HƏRƏKƏT........................................... 9

ƏVVƏLCƏ KAMİLLİYİ TANI, SONRA ARDINCA GET! ....................10
HƏQİQİ İNSAN KAMİLLİYİNİ TƏCRÜBƏ YOLU İLƏ TANIMAQ OLARMI? ....................................................................................10
FƏLSƏFƏNİN İNSAN KAMİLLİYİ HAQQINDA RƏYİ .......................11
FİTRİ İSTƏKLƏRİN İSTİQAMƏTLƏNMƏSİ ........................................12
DƏRKETMƏ VƏ ONUN MƏRTƏBƏLƏRİ ............................................13
QÜDRƏT....................................................................................................14
EŞQ VƏ PƏRƏSTİŞ...................................................................................15
LƏZZƏT VƏ KAMİLLİK..........................................................................17
İNSAN ÜÇÜN ƏN ALİ LƏZZƏT NƏDİR? ............................................18
MEYİLLƏRİN ZİRVƏ NÖQTƏSİ VƏ AMALIN SONU........................19
FİTRİ İSTƏKLƏRİ TAM TƏMİN ETMƏK MÜMKÜNDÜRMÜ? .........21
ALLAHLA AGAH VƏ KAMİL ƏLAQƏ AĞLASIĞANDIRMI?...........22
ƏN SADƏ YOL ..........................................................................................23
AYƏ VƏ RƏVAYƏTLƏRDƏKİ SÜBUTLAR ..........................................27
ÖTƏN SÖHBƏTLƏRDƏN ALINAN NƏTİCƏLƏR..............................32
BİR NEÇƏ SUALA CAVAB .....................................................................33
**CAVAB:**.......................................................................................................34
ALLAHA YAXINLIQ ................................................................................35
YAXINLIQ YOLU .....................................................................................36
İBADƏTİN HƏQİQƏTİ ............................................................................38
TƏKAMÜLDƏ ELMİN ROLU .................................................................40
ELM, İMAN VƏ ƏMƏL ARASINDA ƏLAQƏ.......................................42
İRADƏ .........................................................................................................45
İDRAK MEXANİZMİ ................................................................................45
İRADƏ MEXANİZMİ ................................................................................47
İDRAK VƏ İRADƏ MEXANİZMLƏRİNİN ƏLAQƏSİ.........................48
MEYİL VƏ ƏLAQƏNİN İDRAKDA ROLU ............................................49
İRADƏ VƏ SEÇİM.....................................................................................51
SON NƏTİCƏ.............................................................................................53